QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir


# SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 237 (5957) **21 dekabr** 2019-cu il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**


# Prezident İlham Əliyev MDB dövlət başçılarının qeyri-rəsmi görüşündə iştirak edib



Səh 2

4

"Xalqımız bu addımları tam dəstəkləyir"



4

Parlament seçkilərinə qədər yeni seçki məntəqələri yaradılacaq



5

"Əldə edilən bütün uğurların təməlində Heydər Əliyev ideologiyası dayanır"



# İlham Əliyev: “Bu gün Rusiya-Azərbaycan əlaqələri tarixdə ən yüksək səviyyədədir”

## *Prezident İlham Əliyev Sankt-Peterburqda fəaliyyət göstərən Azərbaycan diaspor təşkilatlarının rəhbərləri ilə görüşüb*



Dekabrın 20-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Rusiya Federasiyasının Sankt-Peterburq şəhərində fəaliyyət göstərən diaspor təşkilatlarımızın rəhbərləri ilə görüşüb. AZƏRTAC-ın xüsusi müxbiri xəbər verir ki, görüşdə çıxış edən Prezident İlham Əliyev qeyd edib ki, bütövlükdə 2019-cu il Rusiya-Azərbaycan əlaqələrinin tarixində xüsusi yer tutur:

-Mən bu gün Sankt-Peterburqa cənab Prezident Vladimir Putinin dəvəti ilə gəlmişəm. Prezident Putinin dəvəti ilə MDB dövlət başçılarının ötən ilin sonunda da qeyri-rəsmi zirvə görüşü keçirilib, bu ilin sonunda da keçirilir. Bu, artıq ənənəyə çevrilibdir və çox gözəl ənənədir. Çünki yaxşı fürsətdir ki, bir daha dövlət başçıları görüşsünlər və gələn il görüləcək işlər haqqında fikir mübadiləsi aparsınlar.

Mən də bu dəfə Azərbaycan diasporunun rəhbərləri və nümayəndələri ilə görüşürəm. Əvvəllər də bizim görüşlərimiz olubdur, həm Bakıda, həm Sankt-Peterburqda. Amma bu gün bir daha görüşürük və bu, çox əlamətdar hadisədir. Mən bilirəm ki, Sankt-Peterburqda və Leninqrad vilayətində çox böyük Azərbaycan diasporu yaşayır və fəaliyyət göstərir. Uzun illərdir ki, bu təşkilata Vaqif Məmişov sədrlik edir. Bilirəm ki, burada yaşayan azərbaycanlılar Rusiyanın çox dəyərli vətəndaşları kimi həm Rusiyanın ümumi inkişafına töhfə verirlər, həm də ki, tarixi Vətənlə də əlaqələri saxlayırlar, gedib-gəlirlər. Mənim bundan xəbərim var, bu, çox müsbət haldır.

Deyə bilərəm ki, bütövlükdə 2019-cu il Rusiya-Azərbaycan əlaqələrinin tarixində xüsusi yer tutur. Prezident Vladimir Putinlə mənim çoxsaylı görüşlərim olub. Hər bir görüş çox məhsuldar olub. Bu görüşlərdə müzakirə olunmuş məsələlər və qəbul edilmiş qərarlar sonra həyatda öz əksini tapır. Nazirlər səviyyəsində bir çox qarşılıqlı səfərlər olubdur, Rusiyanın Federasiya Şurasının sədri xanım Valentina İvanovna Matviyenko aprel ayında Azərbaycana rəsmi səfərə gəlmişdi. Digər vəzifəli şəxslərin də səfərləri olub. İlin sonunda növbəti görüş gözlənilir. Rusiyanın İqtisadi İnkişaf naziri Bakıya gələcək və sonra öz həmkarları ilə sərhədə gedib Samur çayı üzərində tikilmiş yeni körpünün açılışını edəcəklər.

Bu il Mehriban xanımın Rusiyaya çox uğurlu rəsmi səfəri baş tutdu. Səfər çox yüksək səviyyədə təşkil edildi. Prezident Vladimir Vladimiroviç Putin ilə görüşü, Prezident tərəfindən Mehriban Əliyevaya “Dostluq” ordeninin təqdim edilməsi, əlbəttə ki, böyük hadisədir. Biz bilirik ki, Rusiyanın Prezidenti prezident olmayan şəxsləri çox nadir hallarda qəbul edir. Bu istisna hal Rusiya Prezidentinin Azərbaycana münasibətinin təzahürüdür. Azərbaycanda da Rusiya Prezidentinə böyük hörmət var. İkitərəfli əlaqələrin inkişafında prezidentlərin, əlbəttə ki, xüsusi rolu vardır. Mehriban xanımın səfər çərçivəsində həm Baş Nazirlə, həm də Federasiya Şurasının sədri ilə görüşləri olubdur. Əlbəttə ki, Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisində “Azərbaycan” pavilyonunun yenidən açılması tarixi hadisədir.

Yəni, bu və digər hadisələr 2019-cu ildə Rusiya-Azərbaycan əlaqələrinin inkişafını şərtləndirdi. Bu işlərin iştirakçısı və bir çox məsələlərin təşəbbüskarı kimi mən tam qətiyyətlə deyə bilərəm ki, bu gün Rusiya-Azərbaycan əlaqələri tarixdə ən yüksək səviyyədədir.

Rusiyada yaşayan azərbaycanlılar, əminəm ki, bunu gündəlik həyatda hiss edirlər. Çünki Rusiyada azərbaycanlılara münasibət çox müsbətdir, onlar rahat yaşayırlar. Onların bir çoxu, demək olar ki, mütləq əksəriyyəti çox fəaldır, həm elmdə, təhsildə, biznesdə böyük imkanları var. Rusiyanın vilayətlərində və böyük şəhərlərində qanunvericilik orqanlarında artıq azərbaycanlılar təmsil olunurlar. Azərbaycan əsilli vətəndaşların Rusiyada sayı təqribən 700 minə yaxındır. Burada işləməyə, yaxud da ki, ezamiyyətə gələn Azərbaycan vətəndaşlarının sayı da çoxdur. Ona görə Rusiya-Azərbaycan əlaqələrinin bu səviyyədə olması Rusiyada yaşayan azərbaycanlılar üçün də, bizim üçün də çox böyük dəyərdir.

Bildiyiniz kimi, Azərbaycanda da böyük rus icması yaşayır və fəaliyyət göstərir. Cənubi Qafqazda ən böyük rus icması Azərbaycandadır. Onlar bizim qardaşlarımız kimi Azərbaycanın ümumi inkişafına öz töhfələrini verirlər.

Ona görə hesab edirəm ki, ilin sonunda bizim görüşümüzün xüsusi mənası var. Fürsətdən istifadə edərək sizi qarşıdan gələn Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə təbrik edirəm. Xahiş edirəm, mənim salamlarımı Sankt-Peterburqda və Leninqrad vilayətində yaşayan bütün soydaşlarımıza çatdırasınız.

xxx

Azərbaycanlıların Sankt-Peterburqdakı diaspor təşkilatının rəhbəri Vaqif Məmişov diasporun nümayəndələri adından Prezident İlham Əliyevə onlara göstərilən dəstəyə görə minnətdarlığını bildirdi. Qeyd olundu ki, Azərbaycan diasporu Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə aparılan dərin islahatlar prosesini, əldə olunan inkişafı, qazanılan uğurları böyük maraqla izləyir və dəstəkləyir.

Bildirildi ki, diasporumuz dövlətimizin başçısının qayğısını daim öz üzərində hiss edir. Vurğulandı ki, Azərbaycan və Rusiya prezidentlərinin dostluq münasibətləri ölkələrimiz arasındakı əlaqələrin möhkəmlənməsində mühüm rol oynayır, diasporumuz da bu münasibətlərdən bəhrələnir, onun dərinləşməsinə töhfəsini verir və bundan sonra da verəcək. Sonda xatirə şəkli çəkdirildi.

### *Rəsmi xronika*

Prezident İlham Əliyev Nizaməddin Quliyevin Ağstafa Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilməsi haqqında Sərəncam imzalayıb. Trend-in məlumatına görə, sərəncamda deyilir ki, Nizaməddin Məhəmməd oğlu Quliyev Ağstafa Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilsin.

## Prezident İlham Əliyev MDB dövlət başçılarının qeyri-rəsmi görüşündə iştirak edib





Dekabrın 20-də Rusiyanın Sankt-Peterburq şəhərində MDB dövlət başçılarının qeyri-rəsmi görüşü keçirilib. AZƏRTAC-ın xüsusi müxbiri xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev görüşdə iştirak edib. Rusiya Prezidenti Vladimir Putin Azərbaycan Prezidenti İlham Əliyevi qarşıladı. Prezident Vladimir Putin görüşdə çıxış etdi.

Sonra Prezident İlham Əliyev görüş iştirakçıları ilə birgə “1939-cu il II Dünya müharibəsinin başlanması” mövzusunda tarixi-sənədli sərgi ilə tanış oldu.

Sərgidə toplanan arxiv sənədlərinin əsilləri, kinoxronika, fotolar, muzey əşyaları və digər çoxsaylı eksponat irimiqyaslı dünya müharibəsinə gətirib çıxaran hadisələr haqqında məlumat verir. Həm tarixçilər, həm də ən geniş auditoriya üçün nəzərdə tutulan sərgi Rusiyanın Federal Arxiv Agentliyi, Dövlət Hərbi Tarix Arxivi, Xarici İşlər Nazirliyinin tarixi sənədlər departamenti və Prezident Qrantları Fondunun dəstəyi ilə təşkil edilib.

# Dövlət başçısının çıxışı sənaye və iqtisadiyyatın rentabelliyini ehtiva edir

## *Prezident İlham Əliyev: “Bu gün biz ölkəmizin hərtərəfli inkişafına nail olmuşuq və bütün reytinqlər bunu göstərir”*



***Azərbaycanın hərtərəfli inkişafı dövlət siyasətinin prioritetidir. Xüsusilə, regionların sosial-iqtisadi inkişafı ilə bağlı qəbul edilən dövlət proqramları bu sahədə böyük uğurların yaranmasına imkan verib. Həyata keçirilən işlər sayəsində bölgələrdə minlərlə kiçik, orta və iri sənaye, turizm, kənd təsərrüfatı müəssisələrinin işə düşməsi iqtisadi inkişafımıza fayda verməklə yanaşı, bölgələrdə əhalinin məşğulluq probleminin həllində də mühüm rol oynayır.***

Xüsusilə də, yüksək inkişafın təmin edilməsi məqsədilə Prezident İlham Əliyevin Sədrliyi ilə ayrı-ayrı bölgələr üzrə müxtəlif sahələrin inkişafına dair müşavirələrin keçirilməsi aqrar və sənaye sektorunda da canlanmaya səbəb olub. Məhz dekabrın 19-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin yanında pambıqçılıq mövsümünün yekunları və 2020-ci ildə görüləcək tədbirlər ilə bağlı keçirilən müşavirədə əvvəllər keçirilən müşavirələrlə bağlı məlumavt verib: “Əvvəlki dövrlərdə mənim sədrliyimlə çəltikçilik, sitrusçuluq, tütünçülük və çayçılıq üzrə müşavirələr keçirildi. Bu ənənəvi sahələr inkişaf edir. Biz siqareti ixracyönümlü məhsul kimi görürük. Bu il Sumqayıtda yeni siqaret fabriki açıldı, Bakıdakı fabrik yenidən quruldu. Biz həm idxaldan asılılığı azaldırıq, həm də böyük ixrac imkanı yaradırıq. Yəni bütün bu sahələr bizim üçün ənənəvi sahələrdir. Sadəcə olaraq, dövlət diqqəti azalanda, bu sahələr məhvə doğru gedirdi, o cümlədən, üzümçülük. İndi mən bunu qeyd etdim, Ulu Öndərin vaxtında 2 milyon ton üzüm istehsal olunurdu, onlarla şərab zavodu fəaliyyət göstərirdi. Hamısı sıradan çıxdı və məhv edildi. O zavodların materialları satıldı, yəni böyük bir cinayət törədildi və demək olar ki, bu sahə itib-batmışdı. Mən rəqəmlərə baxanda, gördüm ki, bir neçə il bundan əvvəl, cəmi 100 min ton üzüm istehsal olunurdu, yeni bağlar salınmırdı. Çünki əl vermirdi, gərək xərcləyəsən, 5-6 il gözləyəsən, məhsul götürəsən, sonra hara satasan? Şərab zavodları yox, emal yox, ona görə üzümçülük batıb gedirdi. Bir də ki, əlbəttə, Ulu Öndər Azərbaycandan gedəndən sonra burada rəhbərlik etmiş şəxslər də bu cinayətin törədilməsində fəallıq göstərirdilər, üzüm bağlarını qırırdılar. Bu, böyük bir cinayətdir. Nə Ukraynada, nə Gürcüstanda, nə Moldovada, nə Ermənistanda bunlar olmadı. Ancaq burada, nəyə görə? Çünki buraya Qorbaçov tərəfindən cəza kimi bir yaramaz adam göndərildi, onun da əsas məqsədi Azərbaycanı məhv etmək idi və buna nail olmağa çalışırdı. Ancaq Azərbaycan xalqı imkan vermədi və cinayət törədəndən sonra 1990-cı ildə buradan qaçdı. Ondan sonrakı dövrdə - xüsusilə, AXC-Müsavat antimilli qruplaşma hakimiyyətə gələndə onlar, ümumiyyətlə, başa düşmürdülər, anlamırdılar ki, kənd təsərrüfatı nədir. Onların məqsədi talançılıq idi, Ləl-Cəvahirat Fondunu taladılar, orada bir dənə də əşya qalmamışdır, hamısını satdılar, neft bonuslarını oğurladılar. Səhv etmirəmsə, onların dövründə, təqribən, 20 və ya 30 milyon dollar dəyərində neft bonusu verilmişdi, oğurladılar. Sonra bunu axtarmağa başlayanda, onun izi-tozu da qalmamışdı. Bir il ərzində milyardlarla dollar ziyan vurdular, taladılar, oğurladılar, öz ciblərini doldurdular, sonra da qorxaqcasına fərarilik edərək hakimiyyəti tərk etdilər, vəzifələrini dondurdular və bu gün də öz rəzil hərəkətləri ilə cəmiyyətdə ikrah hissi doğururlar. Onların bu qorxaqlığı, panika, isterika, paronoya və satqınlığı, artıq heç kimə sirr deyil. Bax, bu idi real vəziyyət”.

### “Bu gün biz ölkəmizin hərtərəfli inkişafına nail olmuşuq və bütün reytinqlər bunu göstərir”

Dövlət başçısı Azərbaycanın hərtərəfli inkişaf etdiyini və inkişaf etmiş dünya dövlətləri içərisində güclü ölkələr sırasında olduğunu da vurğulayıb: “Ancaq bu gün biz ölkəmizin hərtərəfli inkişafına nail olmuşuq və bütün reytinqlər bunu göstərir. Bu yaxınlarda Azərbaycan dünyanın güclü ölkələri sırasına daxil edilib. Bu siyahıda cəmi 80 ölkə var və bizim bədnam qonşumuzun adı orada yoxdur. Bilmirəm, onların adı hansı dəftərdə var, amma, hər halda, bunu artıq biz demirik, bunu mötəbər qurumlar deyir. Biz güclü dövlətlər sırasında 45-ci yerdəyik. Bir neçə inkişaf etmiş ölkəni qabaqlamışıq. Hələ mən Davos reytinqlərini demirəm, onu dəfələrlə demişəm. Bax, budur bugünkü Azərbaycan”.

Prezident İlham Əliyev əldə olunan nailiyyətlərdə kənd təsərrüfatının prioritet olduğunu vurğulayaraq, tam şəffaflığın vacib olduğunu bildirib: “Ancaq əlbəttə ki, biz əldə edilmiş nailiyyətlərlə kifayətlənə bilmərik. Hazırda kənd təsərrüfatı sahəsində çox ciddi islahatlar aparılır, şəffaflıqla, subsidiyalarla bağlı yeni mexanizmlər tətbiq edilir. Əvvəlki dövrlərdə həm mərkəzi, həm də yerli icra orqanları tərəfindən subsidiyalarla bağlı böyük pozuntular var idi. Buna son qoyulur və son qoyulmalıdır. Bu sahədə və bütün başqa sahələrdə tam şəffaflıq olmalıdır, o cümlədən, ödənişli ictimai iş yerlərinin yaradılması ilə bağlı”.

### “Vətəndaşlar dövlətin diqqətini daim hiss eləsinlər, necə ki, biz hər bir çətin anda vətəndaşın yanındayıq”

Dövlət başçısı, bütün tədbirlərdə olduğu kimi, keçirilən müşavirədə də hər bir məmurun xalqa xidmət etdiyini dönə-dönə vurğulayıb: “Artıq bir neçə icra başçısı vəzifədən çıxarıldı və səbəblərdən biri də o idi ki, onlar kasıb vətəndaşlar üçün nəzərdə tutulan vəsaiti ora-bura xərcləyirdilər. O siyahılara ya öz qohumlarını yazdırırdılar, ya da ki, ümumiyyətlə, o vəsait ünvana çatmırdı. Belə siqnallar olub, onlar araşdırılır və daha da ciddi araşdırılacaq. İş təkcə inzibati cəza ilə məhdudlaşmayacaq və bunu hər kəs eşitsin-bilsin, burada oturanlar və burada olmayanlar. Ona görə hər yerdə şəffaflıq, dövlətə və xalqa, vətəndaşlara xidmət etmək əsas prinsip olmalıdır ki, vətəndaşlar dövlətin diqqətini daim hiss eləsinlər, necə ki, biz hər bir çətin anda vətəndaşın yanındayıq”.

Prezident, xüsusilə də, onu da vurğulayıb ki, istər obyektlərin, istərsə də yaşayış evlərinin sığortalanması ilə bağlı məsələyə də toxunaraq, bildirib ki, bu sahədə maarifləndirmə işləri aparılmalıdır: “Bax, bu, bizim məsuliyyətimizdir, o insanlar ki, doğrudan da, ehtiyac içindədirlər, o evləri özləri bərpa edə bilməzlər. İndi o evləri sığortalamaq üçün maarifləndirmə işləri aparılmalıdır. Ancaq hansısa biznesmenə və böyük mülklərə sahib olan varlı bir adama dövlət niyə kömək etməlidir? Qətiyyən elə şey ola bilməz və hər kəs nəticə çıxarsın”.

### “Son illər ərzində pambıqçılıqda inkişafla bağlı atılmış bütün addımlar öz səmərəsini verməkdədir”

Prezident İlham Əliyev bu gün pambıqçılıqla bağlı məsələlərə toxunaraq, görülən işlərə yüksək qiymət verib: “Pabıqçılıqla bağlı məsələlər müzakirə olunarkən, bir daha demək istəyirəm ki, mən gördüyüm işlərə çox yüksək qiymət verirəm, bütün qurumlar fəal işləyiblər. Prezident Administrasiyası bu işləri koordinasiya edib. Kənd Təsərrüfatı Nazirliyi, yerli icra orqanlarının bir çoxu yaxşı nəticələr əldə ediblər, pis göstəriciləri olan rayonlar da nəticə çıxarmalıdır”.

Dövlət başçısı pambıq yığımında rekord göstərici əldə olunduğunu qeyd edib: “Pambıq yığımı, demək olar ki, başa çatıbdır. Bu il rekord göstərici əldə olunub, 294 min ton pambıq yığılıb və hər hektardan məhsuldarlıq orta hesabla 29,4 sentner təşkil edib. Bu, doğrudan da, çox böyük göstəricidir və onu göstərir ki, son illər ərzində, pambıqçılıqda inkişafla bağlı atılmış bütün addımlar öz səmərəsini verməkdədir. Bu, bir daha onu göstərir ki, dövlət dəstəyi olmadan pambıqçılıq inkişaf edə bilməz. Biz demək olar ki, Azərbaycanda pambıqçılığı dirçəltmişik, bunu çox gəlirli sahəyə çevirmişik, pambıqçılıqla məşğul olan rayonlarda məşğulluq problemlərini həll etmişik. Beləliklə, biz qarşımızda duran bütün vəzifələrə nail olmuşuq, bu vəzifələri icra etmişik”.

**RƏFİQƏ KAMALQIZI**

# "Xalqımız bu addımları tam dəstəkləyir"



***"Ümumiyyətlə, korrupsiyaya və məmur özbaşınalığına qarşı mübarizə Ulu Öndər Heydər Əliyev tərəfindən əsası qoyulan və bu gün möhtərəm Prezidentimiz cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilən daxili siyasətin daim ayrılmaz tərkib hissəsi olub. Bu faktor hakimiyyətə olan ümumxalq inamının mühüm komponentini təşkil edir". Bunu SİA-ya açıqlamasında Yeni Azərbaycan Partiyası İcra katibinin müavini, Milli Məclisin Komitə sədri Siyavuş Novruzov deyib.***

YAP İcra katibinin müavininin sözlərinə görə, uğurla həyata keçirilən neft strategiyası və düşünülmüş iqtisadi tərəqqi konsepsiyası nəticəsində bu gün hər birimiz inkişafın Azərbaycan modeli kimi bir fenomenlə qürur duyuruq: "Ölkəmiz ildən-ilə zənginləşir, insanların rifah halı yaxşılaşır. Azad sahibkarlıq fəaliyyəti üçün hər cür şərait yaradılıb, zəruri infrastruktur və hüquqi-normativ baza formalaşdırılmışdır. Lakin təəssüflər olsun ki, dövlətdə yüksək vəzifələr tutan bəzi şəxslər bu mühitdən öz şəxsi maraqları naminə sui-istifadə etmək və qeyri-qanuni yolla varlanmaq fikrinə düşürlər. Prezident İlham Əliyevin qeyd etdiyi kimi, əgər onların bu cür neqativ fəaliyyəti, sahibkarlığa törətdikləri süni əngəllər olmasaydı bu gün ölkə iqtisadiyyatı indikindən də yüksək göstəricilərə malik olardı. Lakin ən əsası odur ki, bu tip mənfi təzahürlərə qarşı mübarizə ardıcıl və məqsədyönlü şəkildə davam edir və gələcəkdə də belə olacaqdır. Cəmiyyətimizdə bu baxımdan zərrə qədər şübhə və tərəddüd yoxdur və xalqımız bu addımları tam dəstəkləyir".

# 11 ayda Azərbaycana 192 ölkədən 3 milyona yaxın turist gəlib



Dövlət Sərhəd Xidmətinin məlumatına əsasən 2019-cu ilin yanvar-noyabr aylarında Azərbaycana dünyanın 192 ölkəsindən 2923,8 min və ya 2018-ci ilin yanvar-noyabr ayları ilə müqayisədə 11,0 faiz çox əcnəbi və vətəndaşlığı olmayan şəxs gəlib. Dövlət Statistika Komitəsindən AZƏRTAC-a bildirilib ki, gələnlərin 29,7 faizi Rusiya Federasiyası, 22,6 faizi Gürcüstan, 9,9 faizi Türkiyə, 8,0 faizi İran, 3,5 faizi Səudiyyə Ərəbistanı, hər birindən 2,0 faiz olmaqla Birləşmiş Ərəb Əmirlikləri və Hindistan, 1,9 faizi Ukrayna, 1,7 faizi Türkmənistan, 1,6 faizi İraq, hər birindən 1,5 faiz olmaqla Qazaxıstan və İsrail, 1,4 faizi Pakistan, 1,2 faizi Böyük Britaniya, 11,4 faizi digər ölkələrin vətəndaşları, 0,1 faizi isə vətəndaşlığı olmayan şəxslər olmuşdur. Gələnlərin 66,3 faizini kişilər, 33,7 faizini isə qadınlar təşkil edib.

Ölkəmizə yanvar-noyabr aylarında gələnlərin sayında daha çox artım Türkmənistan (90,0 faiz), Hindistan (67,7 faiz), Çin (63,1 faiz), Misir (58,5 faiz), Malayziya (51,2 faiz), Səudiyyə Ərəbistanı (46,1 faiz), Macarıstan (32,8 faiz), Polşa (31,7 faiz), Özbəkistan (27,3 faiz), İspaniya (26,6 faiz), Filippin (26,5 faiz), Böyük Britaniya (26,5 faiz), Qazaxıstan (24,1 faiz), Cənubi Koreya (20,2 faiz), Gürcüstan (20,1 faiz) və Almaniya (19,8 faiz) vətəndaşları arasında qeydə alınmışdır. 2019-cu ilin yanvar-noyabr aylarında Avropa İttifaqına üzv ölkələrdən gələnlərin sayı 22,0 faiz artaraq 130,0 min nəfər, MDB ölkələrindən gələnlərin sayı isə 9,1 faiz artaraq 1060,0 min nəfər olub. Ölkəmizə gələn əcnəbilər və vətəndaşlığı olmayan şəxslərin 58,4 faizi dəmir yolu və avtomobil, 40,8 faizi hava, 0,8 faizi isə su nəqliyyatından istifadə edib.

2019-cu ilin yanvar-noyabr aylarında xarici ölkələrə gedən Azərbaycan Respublikası vətəndaşlarının sayı əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 14,1 faiz artaraq 5095,0 min nəfər olub. Ölkə vətəndaşlarının 36,7 faizi İrana, 28,7 faizi Gürcüstana, 17,6 faizi Rusiya Federasiyasına, 11,5 faizi Türkiyəyə, 5,5 faizi isə digər ölkələrə gedib. Gedənlərin 64,0 faizini kişilər, 36,0 faizini qadınlar təşkil edib. Bu dövrdə İrana gedən Azərbaycan vətəndaşlarının sayı 25,5 faiz, Gürcüstana gedənlərin sayı 12,7 faiz, Rusiya Federasiyasına gedənlərin sayı 6,2 faiz, Türkiyəyə gedənlərin sayı isə 4,5 faiz artıb. Cari ilin yanvar-noyabr aylarında xarici ölkələrə səfər etmiş Azərbaycan vətəndaşlarının 82,5 faizi dəmir yolu və avtomobil, 16,8 faizi hava, 0,7 faizi isə su nəqliyyatından istifadə edib.

# Parlament seçkilərinə qədər yeni seçki məntəqələri yaradılacaq



Azərbaycanda bəzi seçki dairələri üzrə yeni seçki məntəqələri yaradılır. SİA-nın verdiyi xəbərə görə, bu barədə məsələ Mərkəzi Seçki Komissiyasının dünən keçirilən iclasında müzakirə edilib. Bəzi seçki dairələri üzrə yeni seçki məntəqələrinin yaradılmasına dair məsələ baxılaraq, 13 yeni məntəqənin yaradılması ilə bağlı qərar qəbul olunub.

İclasda çıxış edən MSK sədri Məzahir Pənahov qeyd edib ki, növbədənkənar parlament seçkilərində yeni yaradılacaq seçki məntəqələri də daxil olmaqla 5575 məntəqə olacaq: "Seçki məntəqələrinin hamısında lazımi şərait yaradılacaq ki, Azərbaycan vətəndaşları öz hüquqlarından istifadə edə bilsinlər". MSK sədri həmçinin deyib ki, missiyalarını layiqincə yerinə yetirmələri üçün müşahidəçilər üçün də lazımı şəraitin yaradılacağını vurğulayıb.

# Natali Qule: Azərbaycanda həyata keçirilən islahatlar ölkənin yeni imicini formalaşdırır



Azərbaycan Prezidenti İlham Əliyev çox cəsarətli islahatlar həyata keçirir. Ölkə sürətlə inkişaf edir, sosial, iqtisadi sahələrdə islahatlar geniş vüsət alıb. Bu fikirləri Fransa Senatında Fransa-Azərbaycan parlamentlərarası dostluq qrupunun sədr müavini Natali Qule AZƏRTAC-a açıqlamasında deyib. Natali Qule bildirib ki, ölkədə aparılan islahatlar inkişafı daha da sürətləndirəcək və bütün əhali bundan bəhrələnəcək. Azərbaycan Prezidentinin xarici siyasəti kimi daxili siyasəti də müdrikdir. Senator vurğulayıb ki, Azərbaycanda həyata keçirilən islahatlar ölkənin yeni imicini formalaşdırır. Prezident İlham Əliyev, Birinci vitse-prezident Mehriban Əliyeva Azərbaycanın daha da inkişafı istiqamətində böyük səylər göstərirlər. Bu səylər xalqın rifahına, eləcə də regionun sabitliyinə və təhlükəsizliyinə xidmət edir.

# Qoşqar Təhməzli: "2020-ci ildən Azərbaycana gətirilən məhsullara idxal-karantin sistemi tətbiq ediləcək"



Gələn ildən Azərbaycana gətirilən məhsullara idxal-karantin sistemi tətbiq olunacaq. AZƏRTAC xəbər verir ki, bu barədə dekabrın 20-də Qida Təhlükəsizliyi Agentliyinin sədri Qoşqar Təhməzli Xarici Ticarət İştirakçılarının II Respublika Forumunda deyib. "Gömrük-keçid məntəqələrinə yaxın ərazilərdə heyvan, bitki mənşəli və digər qida məhsullarına münasibətdə vahid məntəqələrdə qida təhlükəsizliyinə görə risklərin dəyərləndirilməsi keçiriləcək. Bununla da ölkəyə idxal oluna qida məhsullarının sürətli idxalına, təhlükəsizlik göstəricilərinin təmin olunmasına töhfə veriləcək", - deyə o bildirib.

# Azərbaycan Avropa Şurasının Lanzarote Konvensiyasına qoşulub



Azərbaycan Respublikası "Lanzarote Konvensiyası" kimi tanınan "Uşaqların cinsi istismardan və cinsi zorakılıqdan müdafiəsi haqqında" Avropa Şurası Konvensiyasına qoşulub.

AZƏRTAC xəbər verir ki, Strasburqda Avropa Şurasının mənzil-qərargahında təşkil edilən rəsmi mərasimdə bu Konvensiyanın Azərbaycan Respublikasının 1681-VQ nömrəli 22 oktyabr 2019-cu il tarixli Qanunu ilə təsdiq edilməsi haqqında ratifikasiya sənədinin əsli ölkəmizin qurum yanındakı daimi nümayəndəliyinin rəhbəri, səfir Fəxrəddin İsmayılov tərəfindən təşkilatın baş katibinin müavini xanım Qabriella Battaini-Draqoniyə təqdim olunub. Təqdimat mərasimində Avropada geniş yayılmış uşaqlara qarşı cinsi zorakılığın ən ağır cinayət növü olduğunu bildirən baş katibin müavini Q. Battaini-Draqoni Konvensiyanın Azərbaycan tərəfindən ratifikasiya edilməsini alqışlayıb. Lanzarot Konvensiyasının müvafiq müddəalarına uyğun olaraq, Avropa Şurasının bu hüquqi sənədi 2020-ci il aprelin 1-dən etibarən qüvvəyə minəcək.

# On bir ayda rabitə xidmətlərinin dəyəri 16 faizədək artıb

Yanvar-noyabr ayılarında informasiya və rabitə müəssisələri 1 milyard 964,2 milyon manatlıq xidmət göstərib ki, onun da 72,8 faizi əhali tərəfindən istehlak olunub. Dövlət Statistika Komitəsindən AZƏRTAC-a bildirilib ki, əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə informasiya və rabitə xidmətlərinin dəyəri real ifadədə 15,9 faiz artıb, bu sahədə əldə edilmiş gəlirin 82,4 faizi qeyri-dövlət sektorunun payına düşüb. Xidmətlərdən əldə edilən gəlirin 41,5 faizi və ya 815,2 milyon manatı mobil telefon rabitəsi sahəsində formalaşıb.

# Qulam İshaqzai: Azərbaycan BMT-nin Dayanıqlı İnkişaf Məqsədlərinə sadiq dövlətdir



Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Səbinə Əliyeva BMT-nin ölkəmizdəki rezident əlaqələndiricisi Qulam İshaqzai ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, Ombudsman Azərbaycan dövlətinin insan və vətəndaş hüquq və azadlıqlarının müdafiəsi məsələsinə xüsusi diqqət göstərdiyini nəzərə çatdırıb. O deyib ki, Azərbaycanın öz müstəqilliyini bərpa etdikdən sonra Ombudsman institutunun yaradılması ölkəmizdə insan hüquqlarının müdafiəsi sahəsində atılmış ən mühüm addımlardan biridir. Bildirilib ki, əhalinin bütün qruplarının hüquqlarının müdafiəsi Ombudsmanın çoxşaxəli fəaliyyətinin prioritet istiqamətlərindəndir. Qeyd olunub ki, Azərbaycan Ombudsman institutu, eyni zamanda, BMT tərəfindən tanınan Milli İnsan Hüquqları İnstitutu kimi Paris Prinsiplərinin tələblərinə uyğun olaraq insan hüquq və azadlıqlarının səmərəli müdafiəsi istiqamətində Milli İnsan Hüquqları İnstitutlarının Qlobal Alyansı ilə əməkdaşlıq edir. Müvəkkil bildirib ki, Ombudsman təsisatı fəaliyyəti dövründə BMT və onun struktur bölmələri ilə sıx əlaqələr yaradıb, birgə layihələr reallaşdırılıb. Bu layihələr çərçivəsində BMT-nin İnsan Hüquqları mexanizmləri, BMT-nin müqavilə orqanlarına hesabatların verilməsi ilə bağlı maarifləndirici təlimlər həyata keçirilib. Bütün bunlar insan hüquqlarının təbliği və təşviqi, əhalinin maarifləndirilməsi baxımından böyük əhəmiyyətə malikdir. Müvəkkil bildirib ki, Ombudsman BMT-nin Dayanıqlı İnkişaf Məqsədlərinin həyata keçirilməsi istiqamətində bundan sonra da öz səylərini əsirgəməyəcək. Qeyd olunub ki, Universal Dövri İcmal prosesi çərçivəsində Azərbaycanın dövri məruzələri, həmin məruzələrə Ombudsman institutunun Milli İnsan Hüquqları İnstitutu qismində öz töhfəsini verməsi və tövsiyə qərarlarının icrası ilə əlaqədar müvafiq addımların atılması qarşıda duran mühüm məsələlərdəndir.

Ombudsman Səbinə Əliyeva Ermənistanın Azərbaycan ərazisinin 20 faizini işğal etməsi nəticəsində 1 milyondan çox soydaşımızın qaçqın və məcburi köçkün vəziyyətinə düşdüyünü, bunun insan hüquqlarının pozulması faktı olduğunu deyib, pozulmuş hüquqların bərpasının vacibliyini diqqətə çatdırıb.

BMT-nin ölkəmizdəki rezident əlaqələndiricisi Qulam İshaqzai Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili Səbinə Əliyevanı bu vəzifəyə seçilməsi münasibətilə təbrik edib. O, Ombudsman təsisatı ilə BMT arasında əməkdaşlığın gücləndirilməsinin əhəmiyyətindən bəhs edib. Q.İshaqzai insan hüquqlarının qorunmasının BMT-nin Dayanıqlı İnkişaf Məqsədlərində əksini tapmış mühüm məsələlərdən biri olduğunu vurğulayıb. Ombudsmanların insan hüquqlarının müdafiəsində, inklüziv cəmiyyətin formalaşmasında mühüm rola malik olduğunu deyən BMT-nin ölkəmizdəki rezident əlaqələndiricisi Azərbaycanın Dayanıqlı İnkişaf Məqsədlərinə sadiq dövlət olduğunu vurğulayıb. Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər müzakirə edilib.

# Paşinyanın böyük səhvi



Koçaryanı həbsxanada saxlamaqla Nikol böyük səhv edir. SİA Ermənistana məxsus aysor.am saytında yayımlanan məlumata istinadən xəbər verir ki, bunu "Sexakron" partiyasının rəhbəri Şant Arutyunyan bu gün jurnalistlərlə görüşü zamanı deyib.

O, jurnalistlərlə görüşü zamanı Paşinyanın Koçaryanı həbsxanada saxlamaqla böyük səhv etdiyinə əmin olduğunu deyib və çəkinmədən qeyd edib ki, şəxsən o özü birmənalı olaraq Koçaryanın sərbəst buraxılmasının tərəfdarıdır. "Qoy xoşlarına gəlmədiyi üçün qəbul edilməsin. Amma deyəcəm ki, Paşinyandan "Xaçaturovu buraxdın" deyə soruşan olanda, bir erməni kimi sadəcə utanıram", deyə Şant Arutyunyan bildirib.

*İnam Hacıyev*

# Bəhruz Quliyev: "Əldə edilən bütün uğurların təməlində Heydər Əliyev ideologiyası dayanır"



"Cənab Prezidentin müşavirədə etdiyi çıxışından, irəli sürdüyü fikirlərindən belə bir nəticə çıxarmaq mümkündür ki, ümumiyyətlə, Azərbaycanın inkişaf, tərəqqi reallığı qarşısında bilavasitə Heydər Əliyev faktoru dayanır". Bu fikirləri Olaylar.az -a "SƏS" qəzetinin baş redaktoru, siyasi ekspert Bəhruz Quliyev sözügedən mövzuya münasibətini açıqlayarkən deyib. Onun sözlərinə görə, Ulu Öndər Heydər Əliyev istər ölkəyə rəhbərlik etdiyi birinci dövründə, istərsə də, ikinci dövründə Azərbaycanı ən yüksək mövqelərə sahibləndirib: "Bir fakta diqqət yetirək, Heydər Əliyev hələ SSRİ dövründə ölkəyə rəhbərlik edərkən, aqrar sektor da daxil olmaqla, bütün sahələrdə dinamik inkişaf meyarları müəyyənləşdi və bu amillərin hər biri bu gün yaşadığımız müstəqil Azərbaycanımıza hazırda da töhfələrini verməkdədir. Pambıqçılıq, taxılçılıq və s. kənd təsərrüfatı sektoru ilə yanaşı, neft və kimyəvi məhsullar sənayesi yüksəldi, şərabçılıq, qida sənayesi nəinki SSRİ-nin, eləcə də Avropa ölkələrinin tələbatına doğru yönəldildi. Onu da deyim ki, belə bir siyasət birbaşa gələcəyə hesablanmış siyasi addımların təməli idi". Bəhruz Quliyev əlavə edib ki, Heydər Əliyev 1982-ci ildə Moskvaya, SSRİ-nin ali siyasi komandasına fəaliyyət göstərməyə getdikdən sonra, onu əvəzləmiş respublika rəhbərliyi həmin ənənəni qoruyub-saxlamağı bacarmadılar: "Çünki bunun üçün iradə, qətiyyət lazım idi ki, bu məfhumlar ölkə idarəçilərində yox idi. Məhz bu baxımdan, SSRİ-nin sosial-iqtisadi proseslərində böyük işlər görən Heydər Əliyev bacardığı qədər sonradan yaranmış tənəzzülün qarşısını almaqdan ötrü bütün imkanlarından maksimum istifadə edirdi. Yəni bütün binaların arxasında Azərbaycanı sevmək, xalqına xidmət etmək sevgisi dayanmışdı". "Əbəs deyil ki, məhz xalqın təkidli tələbindən sinra ikinci dəfə hakimiyyətə gələn Ulu Öndər Heydər Əliyev birinci hakimiyyəti dövründə qazanılan uğurları yenidən dirçəltdi", deyən siyasi ekspert həmçinin bildirib ki, belə bir prosesin ağırlığı daha da çətindir: "Təsəvvürünüzə gətirin, bu, nə qədər çətin bir işdir. Cənab İlham Əliyev müşavirədə bildirdi ki, məhz AXC-Müsavat iqtidarı dövründə ölkənin büdcəsi sıfıra bərabər olmaqla yanaşı, iqtisadi-sosial vəziyyəti çökmüşdü. Heydər Əliyev fenomenal siyasəti ilə Azərbaycan dövlətini bu proseslərdən çıxardı. Bu kimi nəhəng işləri məhz o görə bilərdi". Baş redaktor bu gün ölkədə gedən sürətli, çoxşaxəli islahatların təməli olaraq, Heydər Əliyev siyasətinin davam etdiyini vurğulayıb: "Əgər bu gün Azərbaycan dünyanın ən aparıcı ölkələri sırasında mövqeyini yüksəldirsə, reytinqi artırsa, nəhəng layihələrdə təşəbbüskar, ideyaverici olaraq öz sözünü deyrisə və bu siyasət bilavasitə Prezident İlham Əliyev tərəfindən davam etdirilirsə, demək Heydər Əliyev dühasının siyasi, milli dövlətçilik ideologiyası yaşayır, bundan sonra da yaşayacaq".

# DSX: Azərbaycanın dövlət sərhədini pozaraq Rusiyaya keçmək istəyən Əlcəzair vətəndaşı saxlanılıb

Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti (DSX) dövlət sərhədinin etibarlı mühafizəsi tədbirlərini uğurla davam etdirir. DSX-nin mətbuat mərkəzindən AZƏRTAC-a bildiriblər ki, dekabrın 14-də Dövlət Sərhəd Xidmətinin Sərhəd Qoşunlarının "Göytəpə" sərhəd dəstəsinin Biləsuvar rayonunun Yuxarı Ağalı kəndi yaxınlığındakı sərhəd zastavasının xidməti ərazisində sərhəd naryadı tərəfindən naməlum şəxsin Azərbaycan Respublikasından İran İslam Respublikası istiqamətində dövlət sərhədini pozması müşahidə olunub. Sərhəd naryadı tərəfindən "Dayan" əmri verilərək sərhəd pozucusu saxlanılıb. İlkin araşdırma zamanı onun Cəlilabad rayon sakini 1973-cü il təvəllüdlü İbrahimov Zahid Eldar olduğu məlum olub. Araşdırma zamanı Z.İbrahimovun 2018-ci ildə oğurluğa görə məhkum olunması və 2019-cu ilin iyun ayında vaxtından əvvəl şərti azadlığa buraxılması müəyyən edilib.



Dekabrın 17-də Dövlət Sərhəd Xidmətinin Sərhəd Qoşunlarının "Xudat" sərhəd dəstəsinin Qusar rayonunun Samur qəsəbəsi ərazisində yerləşən sərhəd zastavasının xidməti sahəsində Azərbaycan Respublikasından Rusiya Federasiyası istiqamətində dövlət sərhədinin pozulması aşkarlanıb. Sərhəd zastavası "Silaha" komandası üzrə qaldırılıb, xidməti ərazi tam qapadılıb. Görülmüş tədbirlər nəticəsində Əlcəzair Respublikasının vətəndaşı 1987-ci il təvəllüdlü Lahlah Djamal Qusar rayonunun Samur çay yatağında sərhəd pozucusu qismində saxlanılıb. Hər iki fakt üzrə zəruri əməliyyat-istintaq tədbirləri həyata keçirilir.



# Azərbaycan dünyanın ən gözəl turist ölkələri sırasındadır



***Dostluq, sülh, tərəfdaşlıq və mədəni müxtəliflik məsələlərinə töhfələrini verən Azərbaycan qlobal məsələlərin müzakirə olunduğu, qitə və dünya miqyaslı tədbirlərə ev sahibliyi edən humanitar məkan kimi tanınır. Ümumdünya Mədəniyyətlərarası Dialoq forumlarına, Qlobal Bakı Forumuna, Asiya Siyasi Partiyaları Beynəlxalq Konfransının VII Baş Assambleyasına, Qəbələdə beynəlxalq musiqi festivallarına, "Eurovision" musiqi yarışmasına, "Bakı-2015" ilk Avropa Oyunlarına, Dini Liderlərin Ümumdünya Sammitinə və digər nüfuzlu tədbirlərə ev sahibliyi edən Azərbaycan, artıq dünyanın qlobal tədbirlərinin keçirildiyi mərkəzlərdən biri kimi qəbul olunur. Bu və ya digər tədbirlərin keçirilməsi, ölkəmizin sabitlik məkanı olduğunu, əmin-amanlığın hökm sürdüyü diyar olduğunu təsdiqləyir. İqtisadi inkişafımız da, məhz belə tədbirlərin Azərbaycanda keçirilməsinə geniş imkanlar açır. Son 16 ildə Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilən məqsədyönlü siyasət sayəsində ölkənin iqtisadi müstəqilliyinin təmin olunması yolunda inamlı addımlar atılıb. Azərbaycanda keçirilən beynəlxalq tədbirlər, eləcə də, ölkəmiz ətrafında formalaşmış yüksək imic dünyanın diqqətini Azərbaycan yönəldib.***



Bütün sahələrində olduğu kimi, qeyri-neft sektorunun prioritet sahələrindən olan turizm sənayesində görülmüş məqsədyönlü tədbirlər nəticəsində, Azərbaycanda bu sektorun inkişafı üçün münbit şərait yaradılıb və milli turizm kompleksinin rəqabətə davamlılığı yüksəldilib. Turizm sənayesinin sürətli inkişafını təmin etmək məqsədilə Azərbaycan Prezidenti Cənab İlham Əliyev tərəfindən fərman və sərəncamların imzalanması və dövlət proqramlarının təsdiq olunması bu sahədə ciddi irəliləyişlərə səbəb olub. Müasir dövrümüzdə turizm sənayesi iqtisadiyyatın sürətlə inkişaf edən əsas sahələrindən biri kimi ildən-ilə daha da genişlənməkdədir. Xarici turistlərin Azərbaycana rahat şəkildə səfər etmələri üçün görülən işləri də vurğulamaq yerinə düşərdi. Bir sıra MDB ölkələrinin vətəndaşları vizasız, bir sıra ölkələrin vətəndaşları isə sadələşdirilmiş viza əldə etməklə, Azərbaycana səfər edə bilirlər. Elektron viza sisteminin yaradılması, daha sonra "ASAN Viza" sisteminin tətbiqi ölkəmizə gəlmək istəyənlər üçün viza alınmasını 3 gün ərzində mümkün edib. Ölkəmizə beynəlxalq aeroportlar fəaliyyət göstərir. 2025-ci ilədək birbaşa təyyarə reysləri coğrafiyasının 100 ölkəyədək genişləndirilməsi planlaşdırılır.

Bu gün turistlər ilin bütün fəsillərində ölkəmizdə gözəl istirahət edə bilirlər. "Şahdağ" Turizm Mərkəzi, "Tufandağ" Qış-Yay Turizm Kompleksinin fəaliyyətə başlaması ilə ölkəmizdə turizmin mövsümiliyi aradan qalxıb. Bütün bunlarla yanaşı, indi paytaxtda, eləcə də, ölkəmizin bir çox bölgələrində dünyanın məşhur brend hotelləri fəaliyyət göstərir, turistlərə göstərilən xidmətin çeşidi və keyfiyyəti də ildən-ilə yüksəlir.

### Azərbaycan İtaliya və Böyük Britaniyanı qabaqlayaraq, "Ən yaxşı ekskursiya istiqaməti" nominasiyası üzrə qalib ölkədir

Azərbaycanın beynəlxalq sorğularda turist ölkəsi kimi xüsusi yer tutması, ən gözəl şəhərlər sırasında adının yer alması və s. təbii ki, yaşadığımız ölkə haqqında olan yüksək fikirlərdən xəbər verir. Azərbaycanın turizm potensialı, ölkəmizdə turizmin müxtəlif növlərinin inkişafı da turistlərin seçimlərində yanılmadıqlarını bir daha göstərir.

Bu günlərdə Moskvada "National Geographic Traveler" jurnalı tərəfindən təşkil olunan "National Geographic Traveler Awards 2019" müsabiqəsində Azərbaycan İtaliya və Böyük Britaniyanı qabaqlayaraq, "Ən yaxşı ekskursiya istiqaməti" nominasiyası üzrə qalib seçilməsi də əbəs deyil. "Nat-geo.ru" saytı vasitəsilə onlayn səsvermə əsasında aparılan müsabiqədə 450 mindən çox insan iştirak edib. Bu il iyun ayının 29-dan oktyabrın 31-dək davam edən səsvermədə ən populyar turizm növləri və ən yaxşı turizm istiqamətləri üzrə 24 nominasiya yer alıb. Sayca 9-cu dəfə keçirilən müsabiqədə 50-dən artıq ölkənin turizm məhsulları və turizm istiqamətləri səsverməyə çıxarılıb.

Ötən il keçirilən "National Geographic Traveler Awards" müsabiqəsi səyahətçilər üçün ən yaxşı istirahət yerlərini müəyyən edir, həmçinin, yeni səyahət marşrutlarının yaranmasını stimullaşdırır.

### Sağlamlıq turizmi Azərbaycanın brendi kimi təqdim olunur

Azərbaycanı dünyada turizm üçün səciyyəvi edən xüsusiyyətlərdən biri də sağlamlıq-müalicə turizminin olmasıdır. Ölkəmizdə bu sahənin bütün istiqamətlərinin inkişafı üçün lazım olan təbii şərait mövcuddur. Belə ki, ölkədə müalicə-sağlamlıq turizminin inkişafı üçün təbii ehtiyatlar baxımından, hər şey var. Azərbaycanın sağlamlıq turizmi imkanlarını tanıtmaqla, ölkəyə çox güclü turist axınına nail olmaq olar. Sağlamlıq turizmi Azərbaycanın brendi kimi təqdim olunur. Dünyada analoqu olmayan Naftalanın müalicəvi nefti, Naxçıvanın duz mağaraları, Abşeron göllərinin müalicəvi palçıqları və suları, Lənkəranın, Gədəbəyin mineral suları və s. Bu sərvətlərin mövcudluğu Azərbaycanının sağlamlıq turizmini dünya məkanına çıxarmaq baxımından əhəmiyyətlidir.

Azərbaycanda, digər sahələrlə yanaşı, turizmin də inkişafı ölkəmizdə sürətlə gedir. Cənab İlham Əliyev çıxışlarının birində bildirib ki, bu, prioritet məsələdir və son illər ərzində görülmüş tədbirlər nəticəsində, ölkəmizə gələn qonaqların sayı kəskin şəkildə artmışdır. Cari ilin yanvar-oktyabr aylarında Azərbaycanı ziyarət edənlərin sayı ötən ilin eyni dövrü ilə müqayisədə 10,9 faiz daha çox olub. Bu ilin 10 ayı ərzində ölkəmizə 2 milyon 700 min turist gəlib. Qeyd edək ki, gələnlərin 29,8 faizi Rusiya Federasiyası, 22,1 faizi Gürcüstan, 9,8 faizi Türkiyə, 8,2 faizi İran, 3,7 faizi Səudiyyə Ərəbistanı, 2, faizi Birləşmiş Ərəb Əmirlikləri, hər birindən 1,9 faiz olmaqla, Hindistan və Ukrayna, hər birindən 1,7 faiz olmaqla, İraq və Türkmənistan, 1,6 faizi İsrail, 1,5 faizi Qazaxıstan, 1,4 faizi Pakistan, 1,2 faizi Böyük Britaniya, 11,4 faizi digər ölkələrin vətəndaşları, 0,1 faizi isə vətəndaşlığı olmayan şəxslər olub. Gələnlərin 66,1 faizini kişilər, 33,9 faizini isə qadınlar təşkil edib. 2019-cu ilin yanvar-oktyabr aylarında Avropa İttifaqına üzv ölkələrdən gələnlərin sayı 22,3 faiz artaraq, 121,5 min nəfər, MDB ölkələrindən gələnlərin sayı isə, 9,2 faiz artaraq 974,2 min nəfər olub. Ölkəmizə gələn əcnəbilər və vətəndaşlığı olmayan şəxslərin 58, faizi dəmir yolu və avtomobil, 41,2 faizi hava, 0,8 faizi isə su nəqliyyatından istifadə edib.

Azərbaycanda yüksək iqtisadi, sosial və ekoloji tələblərə cavab verən müasir turizm sahəsinin formalaşdırılması və onun ölkə iqtisadiyyatının əsas inkişaf dayaqlarından birinə çevrilməsinin təmin edilməsi istiqamətində əldə olunan irəliləyişlər bu gün ölkəmizi dünyada turizm ölkəsi kimi də tanıda bilib. Göründüyü kimi, bu gün dünyanın bir çox ölkələrində aparıcı sənaye sahəsinə çevrilən turizm Azərbaycanda da sürətlə inkişaf etməkdədir.

***Nəzakət ƏLƏDDİNQIZI***



# Muzeylər maddi-mənəvi sərvətlərimizdir

*Dövlət başçısının Sərəncamı ilə ölkədə tarix elminin inkişafına layiqli töhfələr verən Milli Azərbaycan Tarixi Muzeyinin 100 illik yubileyi qeyd olunacaq*

***Muzeylər milli özünəməxsusluğu nümayiş etdirən, milli-mənəvi dəyərləri toplayan, keçmişlə bağlı həqiqətləri təcəssüm etdirən, qoruyan və təbliğ edən mədəniyyət ocaqlarıdır. Muzeylərimiz zəngin sənət incilərinin və milli sərvətlərin nümayiş etdirildiyi bir məkandır. Bu gün tarixi özündə yaşadan sərvətlərimiz dövlətimiz tərəfindən qorunur və diqqət daha da artır.***

Azərbaycan Milli Elmlər Akademiyası Milli Azərbaycan Tarixi Muzeyinin 100 illik yubileyinin qeyd edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 4 dekabr tarixli Sərəncamı bunun bariz nümunəsidir. 1920-ci ilin iyun ayında Azərbaycan SSR Xalq Maarif Komissarlığının məktəbdənkənar işlər şöbəsində yaradılmış "Muzekskurs" yarımşöbəsinin nəzdində az sonra "Doğma diyarın tədris muzeyi - İstiqlal" təşkil edilir. Artıq iyul ayından məşhur neft sahibkarı və xeyriyyəçi Hacı Zeynalabdin Tağıyevin yaşayış mülkündə yerləşdirilmiş bu muzey həmin ilin oktyabr ayının 25-dən Azərbaycan SSR Dövlət Muzeyi adı ilə işləməyə başlayır. 1921-ci ilin may ayından isə ilk tamaşaçılarını qəbul edir.

Bu gün muzeyin yaradılma tarixindən 100 il ötür. Sərəncama əsasən, Azərbaycan xalqının çoxəsrlik tarixi-mədəni nailiyyətlərinin təbliğinə, həmçinin, ölkədə tarix elminin inkişafına layiqli töhfələri nəzərə alınaraq, Milli Azərbaycan Tarixi Muzeyinin 100 illiyinin qeyd olunmasını təmin etmək məqsədilə, Azərbaycan Milli Elmlər Akademiyası Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi ilə birlikdə AMEA-nın Milli Azərbaycan Tarixi Muzeyinin 100 illik yubileyinə həsr olunmuş tədbirlər planını hazırlayıb həyata keçirəcək.

Bakının memarlıq baxımından qiymətli tikililərindən sayılan binada yerləşmiş muzeyin tarixi-mədəni irsimizin misilsiz yadigarlarının mühafizə olunduğu zəngin elmi fondlarında hazırda üç yüz mindən artıq eksponat saxlanılır. Muzey əməkdaşları tarix, muzeyşünaslıq və numizmatika istiqamətlərində araşdırmalar aparmaqla yanaşı, arxeoloji qazıntılar nəticəsində, Azərbaycan tarixinə dair bir sıra abidələr üzə çıxarmış və əsaslı surətdə tədqiq etmişlər. Muzey çoxşaxəli fəaliyyətini bu gün də tarix elminin yeni nailiyyətləri və muzeyşünaslığın dünya təcrübəsi ilə təsdiq olunmuş prinsipləri zəminində müvəffəqiyyətlə davam etdirir.

Muzeydə hal-hazırda altı şöbə - Azərbaycanın qədim və orta əsrlər dövrü tarixinin ekspozisiyası, Azərbaycanın yeni dövr tarixinin ekspozisiyası, Azərbaycanın ən yeni dövr tarixinin ekspozisiyası, Etnoqrafiya, Numizmatika və Epiqrafika, Elmi-ekskursiya və kütləvi işlər şöbələri fəaliyyət göstərir. 2004-2007-ci illərdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin göstərişi və nəzarəti ilə muzeyin binası əvvəlki görkəmini saxlamaqla, müasir muzey tələbləri səviyyəsində bərpa və təmir olundu. 2007-ci ildə öz qapılarını yeni ekspozisiya ilə tamaşaçıların üzünə açan muzey Azərbaycan tarixinin daha ətraflı və obyektiv təqdim olunması məqsədilə elmi tədqiqat və mədəni-maarif işlərini bir qədər də genişləndirmiş, fəaliyyətini elmin inkişafı üzrə Milli Strategiyaya uyğun qurmuşdur.

Milli Azərbaycan Tarixi Muzeyi mühüm mədəni-maarif və elmi- tədqiqat mərkəzi kimi, yarandığı vaxtdan etibarən, uğurlu inkişaf yolu keçib. Respublikanın bu ilk ən böyük muzeyinin Azərbaycan xalqının qədim zamanlardan müasir dövrə qədərki tarixinin bütün mərhələlərini əks etdirən mədəniyyət nümunələrinin toplanılması, qorunması, nəşri, ekspozisiya və sərgilərdə nümayişi sahəsində diqqətəlayiq xidmətləri vardır.

Azərbaycan xalqının tarixini, böyük şəxsiyyətlərimizin həyatlarını, yaradıcılığını, fəaliyyətlərini özündə əks etdirən muzeylər keçmişimizi özündə yaşatmaqla, gələcəyə böyük soraqlar aparır.

***Zümrüd BAYRAMOVA***

## Qız Qalasının 2019-cu ildəki 150 mininci ziyarətçisi mükafatlandırılıb



"İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi tərəfindən Qız Qalasının 2019-cu ildəki 150 mininci ziyarətçisi mükafatlandırılıb. İdarədən AZƏRTAC-a bildirilib ki, şanslı ziyarətçi Rusiya vətəndaşı olub. Ona Qoruq İdarəsi tərəfindən "150 mininci ziyarətçi" sertifikatı və xatirə hədiyyələri təqdim olunub.

## Tibbi xidmətlərə əlçatanlıq 2020-ci ildə daha da yaxşılaşacaq



Prezident İlham Əliyev tərəfindən təsdiqlənən 2020-ci ilin dövlət büdcəsinə diqqət etsək növbəti ilin büdcəsini müstəqillik tariximizdə ən yüksək sosial yönümlü büdcə adlandıra bilərik. Növbəti ilin dövlət büdcəsi layihəsində sosial xərclər bu ilə nisbətən 8 faizdən çox artıq, ümumilikdə sosial xərclər büdcənin 38,6 faizini təşkil edir. Xərclərinin böyük bir hissəsi səhiyyə xərclərinə, ən əsası isə gələn ildən tətbiqinə başlanacaq icbari tibbi sığortanın tətbiqinə yönəldiləcək. Bu, növbəti ildə əhalinin tibbi xidmətlərə əlçatanlığını daha da yaxşılaşacağını deməyə əsas verir. Məsələ ilə bağlı SİA-ya açıqlama verən Milli Məclisin Səhiyyə komitəsinin üzvü Kamilə Əliyeva İcbari Tibbi Sığorta haqqında qanun 1999-cu ildə qəbul edildiyini, layihənin yenidən daha mükəmməl və hərtərəfli şəkildə işlənib hazırlandığını deyib.

Qanun layihəsinin 2020-ci ilin yanvarın 1-dən qüvvəyə mindiyini deyən deputat söyləyib ki, icbari tibbi sığorta respublikada mərhələli şəkildə tətbiq olunacaq: "Növbəti ilin ilk 3 ayı şimal, aprel ayında qərb, daha sonra cənub, son 3 ayda isə Bakı və Abşeronda icbari tibbi sığortanın tətbiqi nəzərədə tutulub".

### İcbari tibbi sığorta bizə nə verəcək?

K.Əliyeva deyib ki, icbari tibbi sığorta əhalinin, ictimaiyyətin çoxdan gözlədiyi qanun layihəsidir: "İnsanlar bu sistemdən çox mühüm fayda əldə edəcəklər. Çünki bu sistemlə vətəndaşlarımız bir sıra xəstəliklərdən sığortalanacaq, hər hansı müalicə və əməliuyatla bağlı prosedurları daha da asanlaşacaq. İndyədək müəyyən xəstəlikdən əziyyət çəkən insanlar, əməliyyat olmağa imkanı çatmayan şəxslər bu sistemin fəaliyyətindən faydalanmaqla öz müalicəsini tibbi müəssisələrindən yüksək şəkildə ala biləcəklər".

### Tibbi sığorta üçün nə qədər vəsait ödəniləcək?

Komitə üzvü vurğulayıb ki, icabri tibbi sığortanın xidmətlərindən faydalanmaq üçün adambaşına 90 manat nəzərdə tutulub: "İşləyən hər kəsin maaşından 2020-ci ilin yanvar ayının 1-dən icbar sığorta üçün ödəniş ayrılacaq. Lakin 18 yaşına qədər çatan uşaqlar, müharibə əlilləri, yaşlı insanlar, işsiz şəxslər dövlət hesabına bu tətbiqdən bəhrələnə biləcəklər. Hesab edirəm ki, ölkəmizdə icbari tibbi sığortanın tətbiqi sosial tələbat idi. İnsanlar səbrsizliklə bu qanunun qüvvəyə minməsini gözləyirdilər. Ümidvaram ki, onların gözləntiləri özünü doğruldacaq. Hər bir Azərbaycan vətəndaşı onlar üçün tətbiq olunan icbari tibbi sığorta xidmətlərindən istifadə edə biləcək".

### Tibb işçilərinin fəaliyyətinə edəcək TƏSİRLƏR

Deputat qeyd edib ki, icbari tibbi sığortanın tətbiqi həkimlərin üzərinə böyük məsuliyyət qoyacaq: "Çünki gələcəkdə hər bir pasient öz həkimini seçmək hüququna malik olacaq. Aydın məsələdir ki, əgər həkim savadlı, bacarıqlıdırsa, ona tələbat daha çox olacaq. Bu da son nəticədə həmin həkimin aldığı məvacibin artmasına səbəb olacaq. Bu, həkimlərin öz işinə daha məsuliyyətli, savadlı olması vəöz üzərində işləməsinə şərait yaradacaq".

***Nailə Məhərrəmova***

## "500 milyon dollarlıq qaçaqmalçılığın qarşısı alınıb"



"Gömrük xidmətində aparılan sağlamlaşdırmanın nəticəsində qaçaqmalçılığın qarşısı alınıb. Ümumilikdə 500 milyon dollar həcmində qaçaqmalçılıq faktı ilə aşkarlanmış mallar götürülüb". SİA-nın məlumatına görə, bunu Dövlət Gömrük Komitəsinin sədri Səfər Mehdiyev "Xarici ticarət iştirakçılarının II Respublika Forumu"nda deyib. DGK-nin sədri qeyd edib ki, bu malların əsas hissəsini narkotik vasitələr təşkil edib: "Aparılan islahatların Dövlət Gömrük Komitəsi üzərinə düşən missiyanı həyata keçirməkdə israrlı olmasını və eyni zamanda buna qadir olduğumuzu sübut edir".

Qeyd edək ki, bu gün Bakıda "Xarici ticarət iştirakçılarının II Respublika Forumu" keçirilir. Forumda 900-ə yaxın sahibkar iştirak edir. Forumda Dövlət Gömrük Komitəsinin sədri Səfər Mehdiyev, Kənd Təsərrüfatı naziri İnam Kərimov, Azərbaycan Qida Təhlükəsizliyi Agentliyinin sədri Qoşqar Təhməzli və başqa rəsmi şəxslər iştirak edir.

# İlham Əliyev. Əli xalqın nəbzində olan islahatçı Prezident



***Azərbaycanın və onun xalqının taleyinə görə məsuliyyət İlham Əliyevin üzərinə gənc yaşlarında düşmüşdü. Prezident seçiləndə onun 42 yaşı vardı. Müasir dünya tarixinə nəzər yetirsək, bu yaşda dövlət başçısına nadir hallarda rast gələrik. Şəkkaklar vardı: bacaracaqmı? Bacardı. Zamanın çağırışı və xalqın seçimi ilə ona həvalə olunan bu missiyanın öhdəsindən heyrətamiz dərəcədə uğurla gəldi. İlham Əliyevin həyatı uğur səhifələridir. Moskvada təhsil illəri, çətin neft danışıqları, hər ayı, hər ili tarixə yazılan 16 illik prezidentlik dövrü...***

Bunu bir xarizma, fitri liderlik istedadı da hesab etmək olar. Üstəlik o, Heydər Əliyev məktəbi keçib, siyasi-mənəvi baxışları bu məktəbdə formalaşıb. İdarəetməni dahi siyasi xadim, müasir müstəqil dövlətimizin banisi, xalqımızın ulu öndəri Heydər Əliyevdən əxz edib. Siyasətdə varislik prinsipi Prezident İlham Əliyevin bir çox çıxışlarında qırmızı xətt kimi keçir. Onu dünya liderlərindən fərqləndirən ən üstün cəhət xalqla daim təmasda, ünsiyyətdə olmasıdır. Müsahibələrindən birində deyir: "Bu canlı ünsiyyət mənə elimi xalqın nəbzində saxlamaq, nəyin insanları narahat etdiyini bilmək və əlbəttə qərarların yerinə yetirilməsinə nəzarət etmək imkanı verir".

Adı tariximizə islahatçı lider, inkişaf etmiş Azərbaycan dövlətinin qurucusu kimi düşmüş Prezidentimizin həyat yolunun bəzi səhifələrini birlikdə vərəqləyək.

### MDBMİ-nin ən gənc məzunu və müəllimi

Valideynləri onu məktəbə 6 yaşı tamam olmamış göndərmişdilər. Orta məktəbi bitirəndə isə 16 yaşı tamam olmamışdı. Bu yaşda pasport verilmədiyindən İlham Əliyev Moskvaya, ali məktəbə qəbul olunmağa arayışla getmişdi. İmtahanları uğurla verərək elə ilk cəhddə nüfuzlu ali məktəblərdən sayılan Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunun (MDBMİ) ən gənc tələbəsi adını qazandı. İlk müstəqil həyat və ünsiyyət təcrübəsinə burada yiyələndi. İnstitutu bitirəndən sonra SSRİ-nin xarici ölkələrindən birindəki səfirliyinə təyinat alsa da, MDBMİ-də qalmağa üstünlük verdi. Aspiranturaya daxil oldu, dissertasiya müdafiə etdi və 23 yaşında alma-materdə müəllim işləməyə başladı. Ümumiyyətlə, İlham Əliyevin həyatının 15 ili MDBMİ ilə bağlı olub. Həmin dövrü unudulmaz illər adlandıran İlham Əliyev Rusiya telekanallarına müsahibəsində belə deyib: "Tələbəlik illəri hər bir insan üçün xüsusi illərdir. Bu, yetkinləşmək, müstəqil həyata qədəm qoymaq illəridir. Həmin illər mənə bilik, ünsiyyət təcrübəsi verib. Bu, ilk müstəqil həyat təcrübəsi idi".

Prezident İlham Əliyevin sözügedən müsahibəsi mənə Ulu Öndərimizin öz siyasi varisi barədə 16 il əvvəl dediyi sözləri xatırlatdı: "O, yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar bir şəxsdir".

İlham Əliyevin sonrakı siyasi fəaliyyətində, kamil dövlət xadimi kimi formalaşmasında MDBMİ-də yiyələndiyi bilik və təcrübə, oradakı ab-hava mühüm rol oynayıb. Bu nüfuzlu institut da, öz növbəsində, məzunları arasında ilk Prezident olan İlham Əliyevlə qürur duyur. Bununla bağlı araşdırma apararkən MDBMİ-nin sabiq rektoru Nikolay Lebedevin İlham Əliyevə müraciətlə dediyi bu sözlərə rast gəldim: "Mən Sizə həmişə beş vermişəm. Siz bu qiymətə çiçəklənən dövlətin rəhbəri kimi də layiqsiniz".

Məncə, İlham Əliyevin tələbəlik illərini və Prezidentlik fəaliyyətini ikicə cümlə ilə bu qədər dəqiq səciyyələndirən digər lakonik ifadə tapmaq çətindir.

### Çətin neft danışıqları və opponentləri inandırmaq məharəti

Azərbaycan müstəqilliyin ilk illərində ağır iqtisadi böhran yaşayırdı. Heydər Əliyevdən əvvəl iqtidarda olanlar ona ağır miras qoymuşdular. Dövlət xəzinəsi boş idi. Belə vəziyyətdə heç bir iş görmək mümkün deyildi və ümid yalnız dənizin dibindəki neftə qalırdı.

Ulu Öndər çox böyük uzaqgörənliklə xarici şirkətləri Xəzər neftinin çıxarılmasına cəlb etməyə çalışırdı. Lakin o vaxt Azərbaycan riskli ölkə sayılırdı. Ulu Öndərin Vətəni və xalqı qarşısında tarixi xidmətlərindən biri də əcnəbi investorları Azərbaycana sərmayə yatırmağın hədər getməyəcəyinə inandırması oldu.

Danışıqlar isə çətin gedirdi. Tərəflərdən hər biri öz marağından çıxış edirdi. 1994-cü ilin martında Bakıda başlayan danışıqlar sonralar İstanbulda və Hyustonda davam etdirildi. Qarşı tərəf çox ağır şərtlər qoyurdu. Hətta belə bir şərt irəli sürülmüşdü ki, Azərbaycan Rusiya ilə razılaşıb Xəzərin hüquqi statusunu həll etməsə, danışıqlar dayandırılacaq. Status məsələsinin həlli isə bir-iki ilin işi deyildi. Bu barədə məlumat alan Ulu Öndər o vaxt Dövlət Neft Şirkətinin xarici əlaqələr üzrə vitse-prezidenti vəzifəsində işləyən İlham Əliyevi Vaşinqtona göndərdi. O, okeanın o tayında çox faydalı görüşlər keçirib məsələni yoluna qoydu.

Uzun illərin müşahidələri göstərir ki, İlham Əliyev şəxsi xidmətlərini qabartmağı xoşlamır. Neft danışıqlarında iştirakı barədə də nadir hallarda danışır. Bu yaxınlarda "Əsrin müqaviləsi"nin 25 illiyi münasibətilə keçirilən mərasimdəki çıxışında yalnız onu dedi ki, Amerikanın Hyuston şəhərində bir aydan çox davam edən danışıqlar həlledici rol oynadı: "Dövlət Neft Şirkətinin rəhbərliyi - bizim dostumuz rəhmətlik Natiq Əliyev, Xoşbəxt Yusifzadə, Valeh Ələsgərov, mən və digər əməkdaşlar çalışırdıq investorları inandıraq ki, Azərbaycana sərmayə qoymaq olar, sərmayə qoymaq lazımdır və Azərbaycana bu gün sərmayə qoyan sabah böyük fayda görəcək. Belə də oldu. "Əsrin kontraktı"nın icrasına qoyulmuş sərmayə artıqlaması ilə qaytarıldı. Xarici investorlar milyardlarla dollar gəlir əldə etdilər. Azərbaycan dövləti yüz milyard dollardan çox gəlir əldə etdi".

# İlham Əliyev. Əli xalqın nəbzində olan islahatçı Prezident

Danışıqların iştirakçısı olmuş Xoşbəxt Yusifzadə xatırlayır: "Nəzərə almaq lazımdır ki, o vaxt müstəqillik yoluna təzəcə qədəm qoymuş Azərbaycanda neftçi mütəxəssislərin xarici şirkətlərlə danışıqlarda kifayət qədər təcrübəsi yox idi. Lakin Moskvada Beynəlxalq Münasibətlər İnstitutunu bitirib, alimlik elmi dərəcəsi almış və sonra da həmin institutda dərs demiş İlham Əliyevin ingilis dilini və beynəlxalq hüquq məsələlərini gözəl bilməsi, tərəfdaşlarımızla birbaşa ünsiyyət qurub, mürəkkəb vəziyyətlərdən çıxış yollarını tapmaq və gərginliyi aradan qaldırmaq məharəti Vaşinqtonda səlahiyyətli şəxslərlə görüşlərdə də özünü göstərdi".

Beləliklə, "Əsrin müqaviləsi" adını almış həmin neft kontraktı Azərbaycanı inkişaf yoluna çıxardı və neft sənayesinin, bütövlükdə ölkənin sonrakı taleyində həlledici rol oynadı. Kontrakt çərçivəsində "Azəri-Çıraq-Günəşli" yataqlar blokundan indiyədək 500 milyon ton neft çıxarılması, iki il əvvəl kontraktın müddətinin 2050-ci ilədək uzadılması 1994-cü ildə nə qədər düzgün qərar qəbul edildiyini bir daha təsdiqləyir.

## Zamanın çağırışı və xalqın müdrik seçimi

On altı il əvvəl Azərbaycan zamanın yeni çağırışı ilə üz-üzə qalarkən xalqımız növbəti dəfə müdrik seçim edərək, gələcək taleyini Ulu Öndərimizin siyasi varisi İlham Əliyevə etibar etdi. Sözsüz ki, bu seçim Heydər Əliyev kursunun uğuru ilə yanaşı, onun varisinə inam və etimaddan qaynaqlanırdı.

İlham Əliyevin Prezidentlik dövrünü necə səciyyələndirmək olar? Bir cümlə ilə desək, bu illər ərzində Azərbaycan qədər inkişaf edən ikinci ölkə olmayıb: istər iqtisadi-sosial və siyasi baxımdan, istərsə də idarəçilik sisteminin təkmilləşdirilməsi və islahatların dinamizmi baxımından.

Digər baxış bucağından yanaşsaq, bu illər ərzində Azərbaycanın modernləşərək yeni keyfiyyət mərhələsinə qədəm qoyduğunu görəcəyik. Ölkə həyatının bütün sahələri yenilənərək tanınmaz dərəcədə dəyişib. Bu yeniləşmə xalqın rifah halının davamlı olaraq yüksəlməsi, mövcud problemlərin böyük qisminin həlli ilə müşayiət olunub, dövləti və xalqı vahid platformada birləşdirib.

Gözlərimiz qarşısında baş verən misilsiz inkişaf yalnız zəngin təbii sərvətlər - neft, qaz, bərəkətli torpaqlar hesabınamı mümkün olub? Yox, nefti və qazı Azərbaycandan qat-qat çox olan ölkələr var ki, səfalət içərisində yaşayır, münaqişələr girdabında boğulur.

Söhbət, ilk növbədə, liderin həlledici rolundan gedir. Praqmatizm, çevik və ağıllı dövlət siyasəti, sistemli və ardıcıl yanaşma, uzaqgörənlik və prinsipiallıq, yüksək idarəçilik və humanistlik - bütün bunlar Prezident İlham Əliyevə xas olan liderlik keyfiyyətləridir. Azərbaycanın inkişafı, milli maraqlarımızın yüksək səviyyədə qorunması və təmin edilməsi dövlətimizin başçısının bu və digər ali keyfiyyətləri sayəsində mümkün olub. O, Azərbaycanı zamanın çağırışlarına məharətlə uyğunlaşdıra bilib.

Prezident İlham Əliyev öz əsas vəzifəsini xalqına xidmətdə görür və hər bir məmurdan da bunu tələb edir. Yürütdüyü siyasətin mərkəzində Azərbaycan vətəndaşı, onun qayğıları dayanır. Elə buna görə də xalq öz liderinə bütün zamanlarda böyük dəstək göstərib və göstərir. Bunu son bir ildə keçirilən rəy sorğuları əyani şəkildə təsdiqləyir.

## Etimad əmsalı və daim yüksələn reytinq

Dünya praktikasına nəzər salsaq, prezident seçkilərindən sonra liderlərin reytinqinin adətən aşağı düşdüyünü görərik. Bu, onunla izah olunur ki, dövlət başçıları seçkiqabağı vədlərinin heç də hamısını yerinə yetirə bilmir, yaxud cəmiyyətin mənafeyi və maraqları ilə toqquşan addımlar atırlar. Onların fəaliyyətinin bəyənilmə əmsalı ən yaxşı halda 50-60 faizdən yuxarı qalxmır.

Prezident İlham Əliyevin reytinqi isə sabit və kifayət qədər yüksəkdir. Fransanın "Opinion Way" sosioloji tədqiqat institutunun Azərbaycanda son prezident seçkilərindən bir il sonra keçirdiyi rəy sorğusunun (2019-cu ilin apreli) nəticələri əhalinin 85 faizindən çoxunun İlham Əliyevin rəhbərliyi ilə görülən işləri dəstəklədiyini göstərdi. Prezidentin seçkiqabağı vədlərinin yerinə yetirilməsinin qiymətləndirilməsinə dair suala respondentlərin 75,6 faizi müsbət cavab verdi. İnstitutun rəhbəri Brüno Jaubar etiraf edir ki, sorğu azərbaycanlıların öz siyasi rəhbərliyindən çox razı olduğunu birmənalı şəkildə təsdiqlədi.

Azərbaycan Prezidentinin fəaliyyəti ilə bağlı daha bir rəy sorğusu bu yaxınlarda Sosial Tədqiqatlar Mərkəzi tərəfindən aparılıb. Sorğu zamanı, ümumilikdə, 1316 respondentdən İlham Əliyevin oktyabr ayındakı fəaliyyətini qiymətləndirmək xahiş olunub. Onların 77,5 faizi ölkə Prezidentinə inam və etimadın daha da artdığını, 18,1 faizi həmişəki inam və etibarın qorunub saxlanıldığını bildirib: üst-üstə 95,6 faiz.

Digər suallara verilən cavablar da maraq doğurur. Məsələn, Azərbaycanda həyata keçirilən sosial-iqtisadi fəaliyyəti və bu sahədə Prezidentin son bir ildə apardığı islahatları respondentlərin 90,5 faizi, bölgələrin inkişafı üzrə görülən işləri isə 93,1 faizi müsbət qiymətləndirib.

Ölkəmizdə mövcud ictimai-siyasi və sosial-iqtisadi sabitliyin qorunub saxlanmasını respondentlərin 80 faizindən çoxu Prezident İlham Əliyevin fəaliyyətinin ən uğurlu nəticəsi kimi dəyərləndirib. Bu yüksək qiymətin səbəbi adi gözlə görünə biləcək qədər aydındır: regionda və dünyada bir çox mənfi proseslər yaşanmasına baxmayaraq, Azərbaycan öz dinamik sosial-iqtisadi inkişafını davam etdirib, xalqın əmin-amanlığı və rifahı naminə bütün zəruri addımlar atılıb, ardıcıl tədbirlər görülüb.

Ekspertlər Prezident İlham Əliyevin müsbət imicini şərtləndirən amillər sırasında 2018-ci ilin aprelindən 2019-cu ilin aprelinədək olan dövrdə həyata keçirilən struktur və kadr islahatlarını, dövlət idarəetməsinin səmərəsinin artırılması və şəffaflaşdırılması, cəmiyyəti narahat edən mənfi halların aradan qaldırılması istiqamətində atılan ciddi addımları xüsusi qeyd edirlər.

## Vədlə işin vəhdəti

Bir qədər əvvəl qeyd etdiyimiz kimi, dövlət başçılarının reytinqinə birbaşa təsir edən ən mühüm amil seçkiqabağı vədlərə nə dərəcədə əməl olunmasıdır.

"Opinion Way" sosioloji tədqiqat institutunun bununla bağlı sualını rəyi soruşulanların 75,6 faizi müsbət cavablandırıb. Bu qiymət təbii ki, sözlə əməlin vəhdətindən qaynaqlanır, Prezident İlham Əliyevin indiyədək verdiyi heç bir vəd söz olaraq qalmayıb. Xatırlayırsınızsa, neft gəlirlərinin kəskin şəkildə azaldığı, dünyanın qlobal maliyyə böhranı ilə üzləşdiyi vaxtlarda belə, Azərbaycanda sosial proqramların hamısı icra edilib. İlham Əliyev başladığı hər bir işi uğurla başa çatdırmağa nail olub. Azərbaycanın təşəbbüsü və iştirakı ilə həyata keçirilən transmilli energetika və nəqliyyat layihələrini, ölkəmizin azsaylı kosmik dövlətlər sırasına daxil olmasını da bura əlavə etsək, mənzərə daha da aydınlaşar.

Əhali ilə birbaşa təmasda olan Prezident cəmiyyəti düşündürən hər bir məsələdə xalqla həmrəylik nümayiş etdirərək qaldırılan məsələlərin həlli ilə bağlı operativ tədbirlər görüb. Çoxlarının yadında olar, İlham Əliyev 2003-cü ildə ilk dəfə Prezident seçilərkən 600 mindən çox iş yeri yaradılacağını bildirmişdi. O vaxt bəziləri buna fantastika kimi baxırdı. Prezident bu vədini də yerinə yetirdi. Bu gün ölkəmizdə işsizlik 45 faizdən 5 faizə, yoxsulluq 50 faizdən 5 faizə enib.

2000-ci ilin əvvəllərində bölgələrin elektrik enerjisi, qaz və su təchizatı, yol infrastrukturu, məktəblərin, xəstəxanaların vəziyyəti qənaətbəxş deyildi. Prezident əhalini narahat edən bu məsələlərin tezliklə yoluna qoyulacağını dedi. Çox gözləmək lazım gəlmədi. Hazırda ölkə ərazisinin 95 faizi qazlaşdırılıb. On altı ildə 16 min kilometrə yaxın yol çəkilib. Üç mindən çox məktəb tikilib, 600-dən çox tibb müəssisəsi yenidən inşa olunub və ya təmir edilib. Bu müddətdə 30-dan çox elektrik stansiyası istifadəyə verilib və Azərbaycan elektrik enerjisi ixrac edən ölkəyə çevrilib.

İlham Əliyev Prezident seçildiyi ilk gündən ulu öndər Heydər Əliyevin siyasətini davam etdirəcəyinə söz vermişdi. Demişdi ki, hər bir vətəndaşın Prezidenti olacaq. Bu və digər vədlərin hər biri əməli işlərlə tamamlanıb. Azərbaycan heç vaxt tarixdə bu qədər güclü, bu qədər müstəqil və azad olmayıb. Bu güclü, sözün hər bir mənasında, müstəqil, gündən-günə modernləşən Azərbaycan İlham Əliyevin əsəridir.

## Skeptiklərə cavab: iş və nəticə

Adətən yeni ideya, yaxud təşəbbüs irəli sürüləndə buna şübhə ilə baxanlar çox olur, xüsusən belə bir ideya ilə Azərbaycan kimi yeni formalaşan kiçik bir ölkə çıxış etdikdə. Vaxtilə Heydər Əliyevin Bakı-Tbilisi-Ceyhan neft kəməri ideyasının necə qarşılandığını yadınıza salın. Skeptiklər Azərbaycandan Aralıq dənizinə boru kəməri çəkilməsini xəyal adlandırırdılar. Ona hətta üç dəniz əfsanəsi adı verilmişdi.

Yaxud Prezident İlham Əliyevin ideyası olan Cənub Qaz Dəhlizi layihəsini götürək. TANAP boru kəmərinin çəkilməsi təşəbbüsünə də eyni skeptik yanaşma müşahidə olunurdu. Fikir vermişdinizsə, bunun baş tutmayacağı ilə bağlı çox söz-söhbət gedir, məqalələr yazılırdı.

Həmin məqam Çin televiziyası müxbirinin də diqqətindən yayınmamışdı. Çinli müxbirin bu barədə sualını cavablandıran Prezident İlham Əliyev dedi ki, Bakı ilə Aralıq dənizindəki Ceyhan arasında uzunluğu təxminən 2 min kilometr olan boru kəməri çəkilməsi ilə Azərbaycan skeptik düşüncəni darmadağın etdi. Həmin layihə başlayanda Azərbaycan indi olduğu qədər güclü deyildi, xarici maliyyə dəstəyindən çox asılı idi. Buna baxmayaraq, layihə uğurla başa çatdırıldı.

Cənub Qaz Dəhlizinə gəlincə, o, daha böyük layihədir: 7 ölkəni əhatə edən, dəyəri 40 milyard dollar olan bu layihədə 10-a yaxın beynəlxalq bank, çoxsaylı şirkətlər iştirak edir. "Bu layihəni biz başlatmışıq. Resursların həcmi, kəmərin necə tikiləcəyi, texniki çətinliklər, maliyyə mürəkkəbliyi və digər məsələlərlə bağlı çox skeptik fikirlər var idi. Biz isə dedik: biz bunu başlamışıqsa, bunu edəcəyik. İndi demək olar ki, həmin layihə tamamlanmaq üzrədir. Buna görə, biz skeptik yanaşmaya sözlərlə deyil, atdığımız addımlarla, gördüyümüz işlərlə cavab verməliyik", - deyə Azərbaycan Prezidenti müsahibəsində vurğulayırdı. Təbii ki, bu gün skeptiklərin səsi eşidilmir. Xüsusən Cənub Qaz Dəhlizinin bir hissəsi olan TANAP qaz kəmərinin Avropa ilə birləşən hissəsinin açılışı Azərbaycanın gücünü və qərarlılığını bir daha nümayiş etdirdi.

Ümumiyyətlə, Azərbaycanın başlatdığı və ya qoşulduğu bütün layihələr onun tərəfindən tamamlanıb. İki il əvvəl Bakıda Türkiyə və Azərbaycanı, Mərkəzi Asiya və Çini birləşdirən Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin açılışı oldu. Avropa və Cənub-Şərqi Asiya arasında sürətli və sərfəli ticarət əlaqəsi yaratmaq məqsədi daşıyan digər mühüm layihənin - Şimal-Cənub nəqliyyat dəhlizinin Azərbaycandan keçən hissəsi demək olar yekunlaşıb.

Skeptik və qərəzli yanaşma Azərbaycanın ev sahibliyi etdiyi mühüm beynəlxalq tədbirlər ərəfəsində də özünü göstərirdi. Belələrinə cavab yenə iş və uğurlu nəticə ilə verildi. Siyahı yetərincə zəngin və çoxspektrlidir: Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu, BMT-nin Sivilizasiyalararası Alyansının Qlobal Forumu, Dünya Dini Liderlərinin Sammiti, həmçinin birinci Avropa Oyunları, IV İslam Həmrəyliyi Oyunları, Forumula 1 yarışları...

Mövzunu yekunlaşdırarkən onu da qeyd etməyi lazım bilirəm ki, bir müddət əvvəl Bakıda yüksək səviyyədə təşkil olunan Qoşulmama Hərəkatının Zirvə Görüşü dünyada güclü əks-səda doğurdu, skeptiklərə də, bədxahlarımıza da növbəti tutarlı cavab oldu.

## Yerində və vaxtında deyilən söz

Son 16 ildə biz möhtərəm Prezidentimizin bir çox beynəlxalq tribunalarda cəsarətli, dərin məntiqə söykənən çıxışlarının şahidi olmuşuq. İlham Əliyev ikili standartları çəkinmədən tənqid edir, milli maraqları qətiyyətlə qoruyur. Liderin qətiyyətinin, iradəsinin nəticəsidir ki, ən ağır vəziyyətlərdə belə Azərbaycan heç kimin qarşısında baş əymir, sözünü cəsarətlə və açıq deyir.

Ardı Səh. 10

səs
www.sesqazeti.az
facebook Ses Media Holding
21 dekabr 2019-cu il

# İlham Əliyev. Əli xalqın nəbzində olan islahatçı Prezident



Əvvəli-Səh 8-9

Yerində və vaxtında deyilən söz, əlbəttə, daha kəsərli, daha təsirli olur. Çox da uzağa getmədən son vaxtlar baş vermiş iki hadisəni xatırlamaq kifayət edər. Ermənistanın baş naziri Paşinyan Dağlıq Qarabağın mənsubiyyəti ilə bağlı sərsəm fikirlər səsləndirmişdi. Azərbaycan Prezidenti ona cavab verməyə tələsmədi, bunun üçün münasib məqam gözlədi. Nəhayət, belə bir məqam yetişdi. İlham Əliyev sözünü Rusiyada, "Valday" Diskussiya Klubunun tribunasından dedi: "Qarabağ Azərbaycandır və nida işarəsi". Mötəbər tribunada, canlı efirdə deyilən bu sözü bütün dünya eşitdi. Hamıya bir daha agah oldu ki, Qarabağ Azərbaycanındır. Azərbaycanın lideri münaqişə ilə bağlı haqlı mövqeyindən bir addım da geri çəkilən deyil.

Ermənistan rəhbərliyinin əsl mahiyyətini açıb göstərən, ifşa edən növbəti bəyanat bir neçə gün sonra Aşqabadda, MDB dövlət başçılarının zirvə görüşündə səsləndi. Azərbaycan Prezidenti diqqəti Ermənistanda nasist Qaregin Nijdeyə ucaldılmış abidəyə yönəltdi. Dedi ki, MDB məkanında faşistlərə abidələr ucaldılması yolverilməzdir və Yerevandakı abidə sökülməlidir. İlham Əliyevin səsləndirdiyi bu fikir ətrafında hələ də müzakirələr gedir, Ermənistan rəhbərliyinin mövqeyi pislənir.

Dünyada artmaqda olan islamofobiyanı kəskin tənqid edən İlham Əliyev müsəlman və İslam həmrəyliyinə inadlı çağırışları ilə də yadda qalıb. Bununla bağlı son çıxışlarının birində səsləndirdiyi fikir hamımızın ürəyindən xəbər verdi: "Mən müsəlman ölkələrinə dəfələrlə müraciət etmişəm. Açıq müraciət etmişəm ki, siz Ermənistanla necə qucaqlaşırsınız? Siz bunların liderlərini necə dəvət edirsiniz? Görmürsünüzmü ki, bunlar bizim məscidlərimizi yerlə bir etdilər? Görmürsünüz ki, bizim məscidləri təhqir etdilər? Gedin, baxın, o şəkillər var, onlar Ağdam məscidini, Şuşa məscidlərini, işğal edilmiş digər torpaqlardakı məscidləri nə günə qoydular? Bu, axı təkcə bizim məscidlərimiz deyil, bütün müsəlman aləminin məscidləridir. Buna necə göz yummaq olar?"

### İnqilabi islahatlar və brend layihə olan "ASAN xidmət"

Bu gün dünya İlham Əliyevi islahatçı Prezident kimi tanıyır və qəbul edir. Dünya Bankının "Doing Business-2020" hesabatında Azərbaycan ən islahatçı 20 ölkə sırasında yer alıb. Davos Ümumdünya İqtisadi Forumunun hesabatında hökumətin uzunmüddətli strategiyasına görə ölkəmiz 10-cu, rəhbərliyin islahatlara meyillilik səviyyəsinə görə isə 5-ci yerdədir. Azərbaycan vətəndaşları ölkə rəhbərliyinin şüurlu seçimi olan islahatların bilavasitə şahididir, onun müsbət nəticələrini gündəlik həyatda hiss edirlər. Son bir ildə isə islahatlar daha dərin, inqilabi xarakter alıb. Dövlətimizin başçısı bunun anonsunu 2018-ci ilin aprelində, prezident seçkiləri ərəfəsində vermişdi: "Gələcəkdə əsas məsələ yenə də idarəetmənin təkmilləşdirilməsi, fəaliyyətimizin səmərəsinin artırılması, sahibkarlar və iqtisadiyyatın şaxələndirilməsi üçün daha yaxşı şərait yaradılması olacaq".

Bakı Dövlət Universitetinin 100 illik yubileyində çıxışı zamanı da islahatların önəmini vurğulayan Prezident İlham Əliyev bu sahədə daha böyük addımlar atılacağını bildirdi. Çox keçmədən dövlət idarəçiliyi sistemində növbəti köklü islahat və kadr dəyişiklikləri aparıldı. Ardınca V çağırış Milli Məclis buraxıldı və parlamentə yeni seçkilər təyin olundu.

Hər bir islahatın inkişafa və xalqın rifahına xidmət etdiyi göz qabağındadır. Bir fakta diqqət yetirmək kifayət edər: son iqtisadi islahatlar nəticəsində təkcə bu ilin on ayında büdcəyə 850 milyon manatdan çox əlavə gəlir daxil olub. Həmin vəsait sosial sahəyə, əhalinin rifahına yönəldilib. Reallaşdırılan böyük sosial paket 4,2 milyon nəfərdən çox insanın büdcəsinə müsbət təsir edib. Minimum əməkhaqqı iki dəfə, minimum pensiya 70 faiz artırılıb. Tələbələrin təqaüdlərində, məcburi köçkünlərə verilən sosial yardımlarda da əhəmiyyətli artımlar olub.

Daha bir məqam diqqət çəkir: həyatın bütün sahələrini əhatə edən, dünyada maraqla qarşılanan islahatların təşəbbüskarı Prezidentin özüdür. İlham Əliyevin mühüm təşəbbüslərindən olan "ASAN xidmət" Azərbaycanın intellektual brendi kimi dünyaya səs salıb. Əhalinin gündəlik təmasda olduğu xidmət sektorunda korrupsiyaya, rüşvətxorluğa, bürokratiyaya, süründürməçiliyə sipər çəkən "ASAN xidmət" sıradan bir layihə deyil, mahiyyət etibarilə bütün ölkədə vətəndaş məmnunluğu doğuran, ictimai şüurda inqilabi dəyişikliklər yaradan köklü islahatdır. Son rəy sorğularına əsasən, vətəndaşların xidmətdən məmnunluğu 99,4 faiz təşkil edir. Şəbəkəsi getdikcə genişlənən "ASAN xidmət" mərkəzlərinə indiyədək 34 milyondan çox müraciət olub. Həm məmnunluq əmsalı, həm də müraciətlərin sayı layihənin çox böyük səmərəsindən xəbər verir.

### Ailə ocağı və uğura yol

Prezident İlham Əliyev müsahibələrinin birində asudə vaxtını ailəsi ilə keçirdiyini, həyat üçün enerjini məhz ailəsində aldığını deyib. Bu da öz sözüdür: "Mən o insanlardanam ki, işə sevinə-sevinə gedir və işdən evə sevinə-sevinə qayıdıram".

İlham Əliyev və Mehriban xanım uzun illərdir həyat yollarında birgə addımlayırlar. Azərbaycanın ictimai-siyasi, mədəni həyatında fəal rol oynayan, yüksək intellektə malik, prinsipial və xeyirxah insan olan birinci xanım Mehriban Əliyeva xalqın böyük məhəbbətini, rəğbətini qazanıb. Onun 15 ildir ki, rəhbərlik etdiyi Heydər Əliyev Fondu öz mühüm proqramları, bənzərsiz layihələri ilə ölkəmizin inkişafına dəyərli töhfələr verir. Bu illər ərzində "Yeniləşən Azərbaycana yeni məktəb" proqramı çərçivəsində üç mindən çox məktəb binası əsaslı təmir olunub və ya yenidən tikilib. Fondun xətti və dəstəyi ilə minlərlə insan tibbi müalicə alıb. Fond, həmçinin maddi-mənəvi irsimizin qorunmasında əvəzolunmaz rol oynayır. Odur ki, Mehriban Əliyevanın Birinci vitse-prezident təyin olunması gördüyü işlərin məntiqi nəticəsi kimi rəğbətlə qarşılandı.

Mehriban xanım Prezidentin ən yaxın silahdaşıdır. Birinci xanım kimi üzərinə düşən missiyanın məsuliyyətini dərindən dərk edərək ölkə üçün taleyüklü məsələlərin həllində dövlətimizin başçısına çox böyük dəstək verir. Hesab edir ki, dövlət qurumlarında çalışan hər kəs gündəlik fəaliyyətində "insanpərvərlik, mərhəmət, qarşılıqlı hörmət, mehribançılıq" kimi mənəvi dəyərləri uca tutmalıdır və yalnız bu halda ən yüksək qələbələr əldə etmək, ən böyük zirvələrə qalxmaq olar.

Zənnimcə, İlham Əliyevin uğur yolu başlanğıcını məhz ideal ailə ocağından götürüb. O, zəmanəmizin dahi siyasi xadimlərindən biri olan Heydər Əliyevin və görkəmli alimimiz Zərifə Əliyevanın əlindən su içib, onların tərbiyəsini görüb. Sonradan tale ona Mehriban xanım kimi əsil-nəcabətli, həssas qəlbli, mənən zəngin ömür-gün yoldaşı nəsib edib. Prezidentin və birinci xanımın ictimai-siyasi baxışları üst-üstə düşür, bir-birini tamamlayır və bu, Azərbaycanın uğurlarını şərtləndirən amillərdən biridir. Birinci vitse-prezident Mehriban Əliyevanın bu ilin noyabrında Moskvaya etdiyi uğurlu səfər, RF Prezidenti Vladimir Putin və Baş Nazir Dmitri Medvedevlə apardığı danışıqlar onun beynəlxalq imicinin göstəricisi kimi diqqət çəkir.

Ulu Öndərimiz təcrübəsini zamanında addım-addım öz varisinə ötürüb, ona müxtəlif vəziyyətlərdə necə davranmaq lazım gəldiyini öyrədib. Bunun nəticəsidir ki, Azərbaycanın XXI əsrdə yeni lideri olan İlham Əliyev öz dövrünü, zamanı qabaqlayan, möhkəm xarakterə malik kamil şəxsiyyət kimi yetişib və bu, Prezidentimizin istər daxili, istərsə də xarici siyasətdə atdığı hər bir addımda özünü göstərir. O, narahat bir regionda yerləşən Azərbaycanı təhlükəsizlik adasına, müasir iqtisadiyyata malik ölkəyə, dünyada söz və nüfuz sahibinə çevirib. Xüsusən nəhəng transmilli layihə olan TANAP-ın reallaşması Prezident İlham Əliyevin şöhrətini daha da artırıb. Onun liderliyi ilə bağlı yalnız son bir ayda səsləndirilən fikirlərə diqqət yetirək.

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan: TANAP-ın reallaşmasında qardaşım İlham Əliyevin liderliyini unutmaq əsla mümkün deyil.

Gürcüstan Prezidenti Salome Zurabişvili: TANAP layihəsinin həyata keçirilməsində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin xidmətləri əvəzsizdir. O, zəmanəmizin ən uğurlu liderlərindən biridir.

İordaniya Kralı II Abdullah: Beynəlxalq arenada Siz çox vacib rol oynayırsınız. Sizə regionda və dünyada oynadığınız rolunuza görə təşəkkürümü bildirirəm. Mən Sizin liderliyinizə, ölkəmizə münasibətdə xeyirxahlığınıza və dəstəyinizə hər zaman arxalanıram.

Dünya liderlərinin dilindən bu sözləri eşitmək çox xoşdur. Xalqımız və hər bir qədirbilən azərbaycanlı zəmanəmizin ən uğurlu liderlərindən biri olan, beynəlxalq arenada mühüm rol oynayan Prezidenti ilə qürur duyur. Çünki 16 il əvvəl başlayan uğur yolu Azərbaycanı zirvədən-zirvəyə aparmaqdadır...

***Aslan Aslanov***
***AZƏRTAC-ın İdarə Heyətinin sədri,***
***OANA-nın vitse-prezidenti***

# "Xalq üçün" devizi ilə təbliğat-təşviqat kampaniyası uğurla davam edir

### QARADAĞ





23 dekabrda keçiriləcək bələdiyyə seçkiləri ilə əlaqədar təbliğat-təşviqat kampaniyası çərçivəsində Yeni Azərbaycan Partiyası Qaradağ rayon təşkilatında ilk dəfə səs verəcək seçicilər və partiya tərəfindən namizədlikləri irəli sürülmüş gənclərlə keçirilən görüşdə Yeni Azərbaycan Partiyasının Siyasi Şurasının üzvü, partiyanın rayon təşkilatının sədri Aydın Hüseynov çıxış edərək, son illər ölkəmizdə aparılan islahatlardan, ölkə Prezidenti İlham Əliyevin Sədrliyi ilə partiyanın dövlətimizin inkişafına verdiyi mühüm töhfələrdən danışıb: "Seçkilər partiyaların cəmiyyətdə roluna və xalqın etimadını hansı formada qazanmasına əyani bir sübutdur. Çünki hər bir seçici öz mövqeyini açıq şəkildə ifadə edir. Ötən illər keçirilən bütün seçkilərdə seçicilərin yekdil səsini qazanan partiyamızın namizədləri xalqın rəğbətini əməli işləri ilə qazandığını təsdiqləyir. Buna görə də, inanırıq ki, hər bir seçici qarşıdakı növbəti bələdiyyə seçkilərində də fəallıq nümayiş etdirəcək, YAP-ın irəli sürdüyü namizədlərə səs verəcəklər".

Sonda ilk dəfə səsvermə hüququ qazanan gənclərin səsvermə qaydaları ilə bağlı çoxsaylı sualları cavablandırılıb və YAP tərəfindən irəli sürülmüş namizədlərə uğurlar arzulanıb.

### XƏZƏR



YAP Xəzər rayon təşkilatında bələdiyyə seçkilərində səs verəcək Mərdəkan qəsəbəsi seçiciləri ilə görüşdə Milli Məclisin deputatı Rauf Əliyev, YAP Xəzər rayon təşkilatının sədri Namiq Əhmədov çıxış edərək, bələdiyyə seçkilərinin ölkəmizdə demokratiyanın əyani ifadəsinə çevriləcəyini və Azərbaycanda bələdiyyə institutunun formalaşması, yerli özünüidarəetmə orqanlarının səmərəli fəaliyyəti üçün hər cür imkan və şəraitin olduğunu vurğulayıblar. Mərdəkan qəsəbə sakinləri Sabir Dadaşov, Kəmalə Quliyeva, Hüseyn İbrahimov çıxış edərək, 23 dekabr bələdiyyə seçkilərində YAP namizədlərinə səs verəcəklərini və hər kəsi düzgün seçim etməyə çağırıb.

### GƏNCƏ






YAP Gəncə şəhər təşkilatı 23 dekabrda keçiriləcək bələdiyyə seçkiləri ilə əlaqədar təbliğat-təşviqat kampaniyası çərçivəsində Hacıkənd qəsəbəsində "Xalq üçün" devizi ilə keçirilən görüşdə şəhər təşkilatının ideoloji şöbəsinin baş məsləhətçisi Hüseyn Budaqov çıxışına Ümummilli Lider Heydər Əliyevin ilk bələdiyyə seçkiləri öncəsi xalqa müraciəti zamanı dediyi sözlərlə başlayıb: "Əgər bələdiyyə seçkiləri uğurla keçirilsə, əgər bələdiyyələrə, həqiqətən, hər bir bölgədə fəaliyyət göstərib, xalqa xidmət etmək arzusunda olan insanlar seçilsə və bu insanlar, həqiqətən, bələdiyyə üzvü olaraq xalqımıza yaxşı xidmət göstərə bilsə, təbiidir ki, bu, bizim ölkəmizin inkişafında çox böyük rol oynayacaq və dövlətin qarşısında duran vəzifələrin bir qismini bələdiyyələr öz üzərinə götürəcəkdir".

H.Budaqov, onu da bildirib ki, Ulu Öndər Heydər Əliyevin siyasətinin uğurlu davamçısı Prezident İlham Əliyevin rəhbərliyi ilə yerli özünüidarəetmə strukturlarının ölkənin həyatında inkişafı istiqamətində mühüm addımlar atıldığını vurğulayıb.

Görüşdə namizədlərdən Səbuhi Sərməstov, Aydan Bayramlı çıxış edərək, ölkədə bələdiyyə institutunun inkişaf etdirilməsi və təkmilləşdirilməsi məqsədilə mühüm qanunvericilik bazasının formalaşdırıldığını bildiriblər.

Seçicilərdən Xavər Məmmədəliyeva, Xalidə Hüseynova və digərləri çıxışlarında vurğulayıblar ki, əvvəlki seçkilərdə olduğu kimi, 23 dekabr bələdiyyə seçkilərində də YAP möhtəşəm qələbə qazanmaqla tarix yazacaqlar.

### PİRALLAHI

Bələdiyyə seçkilərinin təbdiğat-təşviqat kampaniyası çərçivəsində Pirallahı rayon Gənclər Mərkəzində keçirilən tədbirdə YAP Pirallahı rayon təşkilatının sədri Hikmət Şikarov bələdiyyə seçkilərinin keçirilməsi ərəfəsində olduqlarını və seçkilərə yüksək səviyyədə hazırlaşdıqlarını vurğulayıb. Rayon təşkilatının sədri vurğulayıb ki, bələdiyyələrin hüquqi statusunun qanun çərçivəsində müəyyənləşdirilməsi, ilk də-





fə olaraq, məhz Ümummilli Lider Heydər Əliyevin fəaliyyəti dövründə - 12 noyabr 1995-ci ildə qəbul edilən Azərbaycan Respublikasının Konstitusiyasında öz əksini tapdı: "Ölkəmizdə bu gün azad, ədalətli, demokratik və şəffaf seçkilər keçirilməsi üçün əlverişli mühit var. Azərbaycan ictimaiyyəti qarşıdan gələn seçkiləri səbirsizliklə gözləyir. Ölkədə kifayət qədər perspektivli gənclər var və bu seçkilərdə də gənclərin üstünlük təşkil edəcəklərinə əminik".

Tədbirdə çıxış edən rayon təşkilatının gənclər birliyinin sədri Rüfət Əhmədov, gənclər birliyinin idarə heyətinin üzvü Tosif Mahmudov, bələdiyyə seçkilərində partiya tərəfindən namizədliyi irəli sürülən Türkan Məmmədova, Möhübət Məhərrəmov, Bella Həsənova Azərbaycanın və regionun ən güclü siyasi partiyası olan YAP-ın, bütün seçkilərdə olduğu kimi, bu seçkilərin də qalibi olacaqlarının bildirdilər.

### QUBA





23 dekabr bələdiyyə seçkiləri ilə əlaqədar Quba şəhər Mədəniyyət Evində təbliğat-təşviqat kampaniyası çərçivəsində Quba şəhər Bələdiyyəsi üzrə seçicilərlə görüş keçirilib. Görüşdə YAP Quba rayon təşkilatının təbliğat qrupunun üzvləri, Quba şəhər bələdiyyəsi üzrə rayon təşkilatı tərəfindən irəli sürülmüş namizədlər və 600 nəfərə yaxın seçici iştirak edib.

**Ardı Səh. 12**

# “Xalq üçün” devizi ilə təbliğat-təşviqat kampaniyası uğurla davam edir

Əvvəli-Səh-11

Görüşü giriş sözü ilə açan YAP Quba rayon təşkilatının sədri Yusif Abidov bildirib ki, rayon təşkilatı partiyanın yaradıcısı Ümummilli Liderimiz Heydər Əliyevin ideyalarının təbliğ edilməsi istiqamətində ölkəmizdə uğurla həyata keçirilən ictimai-siyasi proseslərdə yaxından iştirak edir. Sonra rayon təşkilatı sədri Yeni Azərbaycan Partiyasının seçkidəki rolundan, seçkilərin mahiyyətindən və seçicilərin seçkidə aktivlik nümayiş etdirməsindən danışıb. Y.Abidov, eləcə də, respublikamızda və rayonda aparılan abadlıq-quruculuq işlərindən söz açıb.

Görüşdə çıxış edən YAP Quba rayon təşkilatı qadınlar şurasının sədri Aysel Şeydayeva, YAP Quba rayon gənclər birliyinin sədri Əhməd Bəkirli rayon təşkilatı tərəfindən ən layiqli namizədlərin irəli sürüldüyünü qeyd edərək, seçicilərin YAP-ın namizədlərinin dəstəkləyəcəklərinə ümidvar olduqlarını bildiriblər.

Daha sonra Quba şəhər bələdiyyəsi üzvlüyünə namizədlərdən Humayə Məmmədova və Zakir Müslümov çıxış edərək, seçki platformaları və görəcəkləri işlər haqqında seçicilərə ətraflı məlumat veriblər.

Sonda seçicilərin sualları cavablandırılıb və onların təklifləri dinlənilib.

### ZAQATALA





Zaqatala rayonunda uğurla davam edən bələdiyyə seçkilərinin təbliğat-təşviqat kampaniyası çərçivəsində seçicilərlə növbəti görüşlər rayonun Aşağı Tala kəndi və Əliabad qəsəbəsi kəndlərində keçirilib. Görüşlərdə 500-ə yaxın seçici iştirak edib.

Görüşlərdə çıxış edən YAP Zaqatala rayon təşkilatının sədri Habil Qurbanov bələdiyyə seçkilərindən, bu seçkilərlə əlaqədar görülmüş işlərdən danışıb, seçiciləri Yeni Azərbaycan Partiyasının Seçki Proqramı ilə tanış edib. Dövlətimizin yerli özünüidarəetmə orqanı olan bələdiyyələrə olan yüksək diqqət və qayğısından, eləcə də, gələcəkdə bələdiyyələrin qarşısında duran vəzifələrdən bəhs edən H.Qurbanov Zaqatala rayonunda əhalinin Yeni Azərbaycan Partiyasına, partiyanın Sədri, ölkə Prezidenti İlham Əliyevə inamının çox güclü olduğunu bildirib. Qeyd edib ki, zaqatalalılar bu inamı keçirilən bütün seçkilərdə nümayiş etdiriblər. Növbəti bələdiyyə seçkisində də seçicilərin fəal iştirak edəcəyini və ölkəmizin inkişafının davamlı olması üçün Yeni Azərbaycan Partiyasının namizədlərinə səs verəcəklərini əminliklə bəyan edib.

Görüşdə YAP Zaqatala rayon seçki qərargahının üzvləri Namidə Süleymanova, Tahir Məmmədov və Ədalət Novruzova çıxış edərək, bələdiyyə sisteminin əhəmiyyətindən danışıblar. Vurğulanıb ki, hər bir layiqli namizədin bələdiyyələrdə uğurla təmsil olunması, öz bilik və bacarığını, peşəkarlığını tam səfərbər edərək dövlətinə və xalqına ləyaqətlə xidmət etməsi olduqca vacibdir.

Seçicilər çıxışlarında, əvvəlki seçkilərdə olduğu kimi, dekabrın 23-də keçiriləcək bələdiyyə seçkilərində də yüksək fəallıq nümayiş etdirməklə, Yeni Azərbaycan Partiyasının namizədlərini dəstəkləyəcəklərini bildiriblər.

### Binəqədi





YAP Binəqədi rayon təşkilatında bələdiyyə seçkilərində ilk dəfə səsverəcək seçicilərlə görüş keçirilib. Görüşü giriş sözü ilə açan YAP Mərkəzi Seçki Qərargahının Binəqədi rayon şöbəsinin sədri, YAP Binəqədi rayon təşkilatının sədri Ramiz Göyüşov Azərbaycanda bələdiyyələrin 1999-ci ildə formalaşdırıldığını və ötən müddət ərzində, bu sahənin inkişafına xidmət edən mühüm islahatların həyata keçirildiyini söyləyib. Bu sahənin bundan sonra uğurla fəaliyyət göstərməsi və vətəndaşlara layiqincə xidmət göstərə bilməsi üçün davamlı islahatlara ehtiyac olduğunu diqqətə çatdırıb.

Millət vəkili Elman Nəsirov çıxış edərək, Ulu Öndər Heydər Əliyevin zamanın dühası olaraq, ölkəmizin inkişafı istiqamətində misilsiz xidmətlərindən danışıb. Bildirib ki, Ulu Öndər Heydər Əliyev Yeni Azərbaycan Partiyasını yaratmaqla dövlətinə, xalqına mühüm töhfə verib və bu partiya fəaliyyətinin bütün illərində ictimai-siyasi proseslərdə fəal iştirakı ilə seçilib. E.Nəsirov, eyni zamanda, dövlət başçısı İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə həyata keçirilən islahatlardan, iqtisadiyyatın artım tempindən, dünyanın beynəlxalq təşkilatlarının hesablamalarına görə ən islahatçı ölkələr sırasında qeyd edilməsindən danışıb. Bütün namizədlərə uğurlar arzulayıb.

YAP Gənclər Birliyinin sədri Seymur Orucov çıxışında ölkəmizdə həyata keçirilən gənclər siyasətindən danışıb. Dövlət başçısının gənclərin fəaliyyətinə çox böyük önəm verdiyini və onların vətənpərvər gənclər olaraq yetişməsi üçün atdığı addımlardan söz açıb. Gənclərimizi daim fəal olmağa, dövlətçiliyimizin və xalqımızın təhlükəsizliyinə zərər verə biləcək qüvvələrə qarşı mübarizə aparmağa səsləyib. S.Orucov seçkilərdə partiya tərəfindən irəli sürülən şəxslər arasında gənc namizədlərin sayının çox olmasının gənclərimizə göstərilən yüksək etimadın göstəricisi olduğunu vurğulayıb və onlara uğurlar arzulayıb.

Görüşdə çıxış edən gənc namizədlər Anar Əliyev, Günel Məmmədova, Eldar Qurbanov, Nərmin Ağayeva, Aytac Ağayeva, Vüsalə Fətullayeva, Cəmilə İsmayılova seçki proqramlarını açıqlayıblar. Seçiləcəkləri təqdirdə, görəcəkləri işlərdən bəhs ediblər. Həmçinin, ilk dəfə səs verəcək gənclər Yeganə Cavadova, Məhəmməd Məhəmmədov, Nigar Aboyeva çıxış edərək, bütün seçiciləri Yeni Azərbaycan Partiyasının namizədlərinə səs verməyə çağırıblar.

Görüşün sonunda seçiciləri maraqlandıran suallar qonaqlar və namizədlər tərəfindən cavablandırılıb.






### AĞDAŞ

23 dekabr bələdiyyə seçkiləri ilə əlaqədar olaraq, Ağdaş rayonunda “Xalq üçün” devizi ilə keçirilən təbliğat kampaniyası çərçivəsində rayonun Dəhnəxəlil, Qolqəti, Şəkili, Pirkəkə və Güvəkənd kəndlərində seçicilərlə keçirilən görüşləri açan Yeni Azərbaycan Partiyasının bələdiyyə seçkilərində səlahiyyətli nümayəndəsi İsa Eminov qeyd edib ki, yerli idarəetmə institutu olan bələdiyyələrin ölkəmizdə formalaşması Ümummilli Liderimiz Heydər Əliyevin adı ilə bağlıdır. Məhz 1995-ci ildə qəbul olunmuş ilk müstəqil Konstitusiyamızda bələdiyyələrin fəaliyyəti üçün müvafiq qanunvericilik bazası formalaşdırılmışdır. Hazırda yerli özünüidarəetmə orqanı olan bələdiyyələrin cəmiyyətimizdə rolu ildən-ilə artır, ölkə həyatının müxtəlif sahələrində fəal iştirak etməsi və səmərəli fəaliyyətinin təşkili üçün, ötən müddət ərzində, onların fəaliyyətinin təkmilləşdirilməsi istiqamətində mühüm addımlar atılıb, zəruri qanunvericilik bazası və müvafiq strukturlar tam formalaşıbdır. “Xalq üçün” devizi ilə təşviqat kampaniyasını uğurla davam etdirən YAP tərəfindən irəli sürülən namizədlərin xalqımız tərəfindən yekdil dəstək alacağına inandığını bildirən İ.Eminov seçiciləri Yeni Azərbaycan Partiyasının Seçki Proqramı ilə də tanış edib.

YAP Seçki Qərargahı Ağdaş rayon şöbəsinin üzvü Pərvin Rəhimov çıxışında dövlətimizin yerli özünüidarəetmə orqanı olan bələdiyyələrə olan yüksək diqqət və qayğısından, eləcə də, gələcəkdə bələdiyyələrin qarşısında duran vəzifələrdən danışıb. O, bələdiyyə seçkilərində YAP-ın inamla qələbə qazanacağını qeyd edərək, bundan sonra da, bələdiyyələrin rayonun sosial-iqtisadi həyatına, abadlıq və quruculuq işlərinə mühüm töhfə verəcəyini bildirib.

Görüşlərdə çıxış edən seçicilər partiyanın sədri, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin apardığı uğurlu siyasət nəticəsində, ölkəmizdə yerli özünüidarə orqanları olan bələdiyyələrin fəaliyyətinin genişlənməsinə verilən dəstəyin əhəmiyyətini vurğulayaraq, qeyd ediblər ki, bələdiyyə seçkilərində də ağdaşlılar böyük fəallıq və coşqu nümayiş etdirəcək və bu siyasi kampaniyanın yüksək səviyyədə keçirilməsinə nail olacaqlar. Onlar ölkəmizdə gedən dinamik inkişaf və tərəqqi, vətəndaşa göstərilən diqqət və qayğı üçün ölkə başçısına minnətdar olduqlarını, bu siyasəti ürəkdən dəstəklədiklərini və seçkilərdə iştirak edərək, YAP-ın namizədlərinə səs verəcəklərini bəyan ediblər.

***RƏFİQƏ HÜSEYNOVA***
***NƏZAKƏT BAYRAMOVA***
***ZÜMRÜD BAYRAMOVA***
***RÖVŞƏN RƏSULOV***

# Seçki qərarı müxalifəti bitirəcək

***Yeni Azərbaycan Partiyasının ölkəmizdə Prezident İlham Əliyevin rəhbərliyi ilə aparılan islahatların davamı olaraq, parlamentə növbədənkənar seçkilərin keçirilməsi təşəbbüsü ilə çıxış etməsi və bu təşəbbüsündə Milli Məclis üzvləri tərəfindən dəstəklənməsi ümumxalq maraqların ifadəçisi kimi qəbul edilir. Müxalifət isə yenə də ənənəvi ampluasından çıxış edib və seçkilərlə bağlı böhtan xarakterli açıqlamalar səsləndirir. Söhbət etdiyimiz müsahiblərimiz müxalifətin sifariş əsasında hay-küy qaldırdığını bildirib.***



### Milli QHT Forumunun prezidenti Rauf Zeyni: "Müxaliflər arasında normal düşüncəyə malik insan yoxdur"

- Ölkə Prezidentinin apardığı islahatlar bütün sahələri əhatə edir. İslahatların qanunverici orqanda da davam etdirilməsi üçün Yeni Azərbaycan Partiyası çox böyük uğurlu addım atdı. Hesab edirəm ki, ölkə Prezidenti İlham Əliyevin apardığı islahatlar cəmiyyətin inkişafına və demokratik proseslərin sürətlənməsinə yeni təkan olacaq. Xoşməramlı addımlar fonunda müxalifətin hay-küy qaldırması onların məsələlərə dayaz düşüncədən yanaşmalarından irəli gəlir. Ümumiyyətlə, müxalifət düşərgəsində təmsil olunan partiyalar, xüsusilə də, radikal qanadın təmsilçiləri hər zaman milli və dövlətçilik maraqlarına zidd olan fəaliyyət yolu tuturlar. Onların yanaşmaları ədalətsiz və qərəzli yanaşmalardır. Ənənələrinə uyğun olaraq, Yeni Azərbaycan Partiyasının parlamentin buraxılması təşəbbüsü və bu təşəbbüsün Milli Məclisin üzvləri tərəfindən də dəstəklənməsindən, müxalifətin radikal qanadı əsasız hay-küy qaldırmaqla münasibət bildirir. Yeni bir parlamentin formalaşması ölkədə aparılan islahatların ruhuna tam uyğundur. Əslində, müxalifət düşərgəsində təmsil olunan partiya funksionerləri normal düşüncəli adamlar olsa idilər, parlamentin buraxılması təşəbbüsünü dəstəkləyərdilər. Kim onu dəstəkləmirsə, deməli, onun düşüncəsində problem var. Uğur qazanmayanda, böhtan atmaq xarakteri üzə çıxarır. Əgər sən seçkilərdə uğur qazana bilmirsənsə, uğur qazanana böhtan atmağın nə mənası var?

### Təkamül partiyasının sədri Teyyub Qənioğlu: "Növbədənkənar parlament seçkilərinin keçirilməsi təqdirəlayiq haldır"

- Yeni Azərbaycan Partiyasının təklifi ilə növbədənkənar parlament seçkilərinin keçirilməsi təqdirəlayiq haldır. Yəni bu, gözlənilən idi. Radikal müxalifət düşərgəsini təmsil edən şəxslərin parlament seçkilərinin keçirilməsi barədə qərara qərəzli yanaşmaları və sosial şəbəkələrdə şər-böhtan xarakterli fikirlər səsləndirmələri onların müstəqil mövqedə olmadıqlarını göstərir. Müxalifət təmsilçiləri qorxurlar ki, bu seçkilərdə müvəffəqiyyət qazana bilməsinlər. Yəni onları narahat edən əsas məsələ uğur qazanmaq şanslarının sıfıra bərabər olmasıdır. Yoxsa sözügedən qüvvələrin özləri, parlamentin buraxılmasını tələb edər və seçkilərin keçirilməsini istəyərdilər. İndi nə oldu, nəyə görə siz müxalifət bu cür hay-küy qaldırırsınız? Adama deyərlər, bu da meydan, qatılın seçkilərə və nəyə qadir olduğunuzu nümayiş etdirin. Amma indidən tam əminliklə demək olar ki, müxalifəti seçki uğursuzluğu gözləyir. Çünki cəmiyyətdə sosial dayaqlara malik deyillər. Digər tərəfdən xalqın nifrətini qazanıblar.

### "Palitra" qəzetinin baş redaktoru Namiq Əliyev: "Müxalifət dərk edir ki, bu qüvvə ilə seçkiyə qatılsalar, məğlubiyyət qaçılmazdır"

- Ölkədə növbədənkənar parlament seçkilərinin keçirilməsi Azərbaycan Respublikasının Konstitusiyasına və qanunvericiliyə tamamilə uyğundur. Dünyanın bir sıra ölkələrində erkən parlament seçkilərinə gedilməsinə dair çoxsaylı nümunələr var. Bu beynəlxalq təcrübə haqqında mətbuatda kifayət qədər materiallar dərc olunduğundan, həmin mövzuya toxunmaq təkrarçılıq olardı. Sadəcə, Türkiyədə baş verən "erkən seçkilər" nümunəsini xatırlatmaq istəyirik. Adətən, qardaş ölkədə, bizdən fərqli olaraq, müxalifət "erkən seçkilərə" gedilməsinə daha çox meyilli olur. Bizim müxalifət başbilənləri isə, tamamilə tərsinə düşünürlər.

Sual olunur, əgər qanunvericilik və beynəlxalq təcrübə nümunələri iqtidar partiyasının bu addımına tərəfdirsə, o zaman müxalifət niyə bu şəkildə "saçlarını yolur", erkən seçkiləri qərəzlə qarşılayır?

Müxalifətin seçkiləri "boykot" etməsinin yeganə bir səbəbi var ki, bu da, onların həddindən artıq zəif olması ilə bağlıdır. Müxalifətin son aksiyaları fikrimizi təsdiqləyə biləcək ən son nümunələr ola bilər. Xatırlayırsınızsa, onlar sosial şəbəkələrdə nə qədər təbliğat apardılarsa da, cəmiyyət aksiyalara dəstək vermədi. "AXH" adlanan digər müxalif qanadın aksiyasını da, real olaraq, baş tutmamış hesab etmək olar. Beləliklə, müxalif cəbhə liderləri yaxşı başa düşürlər ki, bu qüvvə ilə seçkiyə qatılsalar, məğlubiyyət qaçılmazdır. Odur ki, onların bircə yolu qalır: seçkilərə qara yaxmaq, prosesi gözdən salmağa çalışmaq.

**GÜLYANƏ**

# AXCP və Müsavat funksionerlərinə xaricdən növbəti tapşırıq verilib

*AXCP ilə Müsavat arasında növbəti qarşıdurma yaranır*

Tərəflər bir-birini satqınlıqda və xəyanətdə ittiham edirlər. Bir qədər əvvəl birlikdə olmaq, hansısa yeni bir blok yaratmaq ideyası ilə çıxış edən Müsavat və AXCP fevralın 9-da keçiriləcək parlament seçkiləri ilə bağlı yenidən fərqli mövqe nümayiş etdirirlər. Müsavat seçkilərə qatılmaq istəsə də, AXCP "boykot" çağırışı ilə çıxış edir. Bu amil yenidən AXCP ilə Müsavatın bir-birini təhqir etməyə və ittihamlar irəli sürməyə əsas olacaqmı? Söhbət etdiyimiz müsahiblərimiz qeyd etdilər ki, hər zaman bir-birinə qarşı düşmən münasibət sərgiləyən AXCP və Müsavat partiyaları seçkilərlə bağlı fərqli mövqelərindən sonra bir-birinə qarşı daha sərt formada ittihamlar irəli sürəcəklər.

### Müasir Müsavat Partiyasının sədri Hafiz Hacıyev: "AXCP və Müsavat funksionerlərinə xaricdən növbəti tapşırıq verilib"

- Müsavat seçkilərə qatılmaq, AXCP isə "boykot" çağırışı ilə çıxış etməsinə görə tərəflərin bir-birini təhqir etməyə, ittihamlar irəli sürmələrinə əsas olamayacaq. Çünki bu qurma plandır, yəni onların aralarında olan gizli bir sövdələşmədir. Müsavat partiyası seçkilərə müəyyən vaxta qədər gedəcək, amma sonradan isə guya "seçkilər saxta keçirilir, seçkilərin gedişatında qanun pozuntusu var" deyə bəhanə gətirərək, öz namizədliklərini geri çağıracaqlar. Guya bunlara seçkilərdə şərait yaradılmadı və buna görə də, seçkilərdən geri çəkildilər. Bir sözlə, onların bu aldadıcı manevrlərinə inanmaq lazım deyil. Demək olar ki, bu şəxslər ölkədə nə isə bir xoşagəlməz vəziyyət yaratmaq istəyirlər. AXCP və Müsavat funksionerlərinə xaricdən növbəti tapşırıq verilib ki, Müsavat seçkilərə getsin və sonra da geri çəkilsin, AXCP isə seçkiləri "boykot" eləsin. Bu baxımdan, bunlara heç vaxt inanmaq olmaz. Ümumiyyətlə, onların nə etmələrindən və nə demələrindən asılı olmayaraq, heç vaxt ölkəmizlə bağlı məkrli planları baş tutmayacaqdır.

### Mətbuat Şurasının sədr müavini Müşfiq Ələsgərli: "Müxaliflərin qurduqları iş xırda intriqalardan uzağa getmir"

- Müsavat seçkilərə qatılmaq, AXCP isə boykot çağırışı ilə çıxış etməsində təəccüblü bir şey yoxdur, çünki zaman-zaman belə olub. Müxalifət düşərgəsini təmsil edən bu şəxslər 26 ildir ki, müxalifətdədirlər və bu 26 il ərzində, nə qədər seçki keçirilibsə, həmişə anormal mövqe ortaya qoyublar. Guya bununla, hər iki tərəfi əldə saxlamağa çalışırlar. Guya bir qismi boykotçu müxalifət rolunu oynayır, bir qismi isə seçkiyə gedən müxalifət rolunu oynayır, bu vasitə ilə müxalif düşərgəni əldə saxlamaq istəyirlər. Amma bu, mümkün deyil. Çünki adları çəkilən şəxslər bu 26 il müddətində kifayət qədər müxtəlif taktikalardan istifadə ediblər, oyunlar qurublar, amma hər dəfə də məğlubiyyətlə qarşılaşıblar. Müxaliflərin qurduqları iş xırda intriqalardan uzağa getmir və xalqın tələblərinə yox, özlərinin düşüncələrinə əsaslanırlar. Bir sözlə, onlar həmişə belə xırda-para oyunlar qurmaqla, sadəcə, gündəmdə qalmağa cəhd göstərirlər. Reallıqda onların nə boykotları, nə də seçkilərə qatılmaları bir nəticə verməyəcək. Çünki onların xalq arasında sosial bazaları yoxdur. Sadəcə olaraq, gündəmdə qalmaq üçün bu cür oyunlar oynayırlar və artıq xalq da onların bu cür oyunlarına 26 ildir ki, ironiya ilə baxır. Qaldı ki onların öz aralarında qarşıdurmalarına, bu da, yeni bir məsələ deyil. Onlar hakimiyyətdə olanda da belə olublar, müxalifətdə olanda da, belə davranıblar və belə davrandıqlarına görə də, heç vaxt xalq arasında sosial baza toplaya bilməyiblər.

**GÜLYANƏ**

## DİN: Ötən gün borclu şəxs qismində axtarılan 15 nəfər saxlanılıb



Respublikanın daxili işlər orqanları ötən gün ərzində törədilmiş 9 cinayətin üstünü "isti izlər"lə açıblar. Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, əvvəlki dövrlərdən bağlı qalmış 12 cinayətin açılması təmin olunub. Axtarışda olduğuna görə ümumilikdə 31 nəfər, o cümlədən borclu şəxs qismində axtarılan 15 nəfər saxlanılaraq aidiyyəti üzrə təhvil verilib.

Respublikanın avtomobil yollarında bir ağır yol-nəqliyyat hadisəsi baş verib. Nəticədə bir nəfər ölüb. Daxili işlər orqanları əməkdaşlarının həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində narkotiklərlə əlaqəli 4 fakt müəyyən edilib. Cinayət törətməkdə şübhəli bilinən 22 nəfər saxlanılıb.

www.sesqazeti.az
facebook Ses Media Holding

# Sosial şəbəkələrin trol “madonnası”

## Və yaxud AXCP-nin ikiüzlü, riyakar reneqatı Gültəkin Hacıbəyli



***Qarşıdakı növbəti parlament seçkiləri ərəfəsi dağıdıcı müxalifət düşərgədə təmsil olunanlar, bir tərəfdən bütün mənəvi-əxlaqi sədləri aşaraq, Azərbaycanın uğurlarından qaşınmaya düşməklə yanaşı, indi də qarşıdakı nöbəti parlament seçkiləri ərəfəsi bu qaşınma daha da artıb. Xüsusilə də, özünü “Milli Şura”nın “əzəli” və “əbədi”, “cəfakeş” üzvü, adlandıran, müxalifətçi libası altında siyasi meydanda əsl çılpaqlıq nümayiş etdirən, AXCP sədri Əli Kərimlinin tapşırıq və sifarişlərini icra edən Gültəkin qarşıdakı parlament seçkiləri ərəfəsi yenə də yuyulmamış çömçə kimi ortaya düşüb. Hər dəfə də ölkəmizdə seçki, mühüm beynəlxalq yarış və ya tədbir keçiriləndə, sosial şəbəkələrin trol “madonnası” yaman “aktivləşir” ki, gəl görəsən. Çünki bu “aktivliyin” məqsədi xaricdən aldığı sifarişlər əsasında qarayaxma kampaniyaları aparmaqla qrantlar əldə etməkdir.***

### Gültəkin Hacıbəyli kimilər, əslində, siyasəti çirkin edənlərdir

Bu gün dağıdıcı müxalifət düşərgəsində AXCP sədri Ə.Kərimlinin “danışan dili” olan “Milli Şura”nın koordinasiya mərkəzinin üzvü G.Hacıbəylinin sosial şəbəkələrdəki həqiqətdən uzaq, şər-böhtan dolu çıxışlarını dinlədikcə, həmin fikirlərin həqiqət olduğuna bir daha əmin olursan.

Əslində, hər addımda ikiüzlülüyü, riyakarlığı ilə tanınan, parlamentin üzvü olanda, dövlətin imtiyazlarından gen-bol istifadə edərək, tam komfort şəraitində yaşayanda, tamamilə, başqa cür danışırdı. G.Hacıbəylinin o zamanlar başda Ə.Kərimli olmaqla, dağıdıcı müxalifət düşərgəsinin başbilənlərini yerdən-yerə vurmağını da heç kim unutmayıb. Ancaq elə ki, deputat seçilmədi, mandatdan məhrum oldu G.Hacıbəyli, hətta öz keçmiş həyat yoldaşının da etiraf etdiyi kimi, 180 dərəcə dəyişdi. Söylədiklərimizi faktlara əsaslanaraq deyirik. Belə ki, AXCP-nin orqanı olan “Azadlıq” qəzetinin 2005-ci il 2-3 oktyabr tarixli sayında “Azadlıq” blokunun 96 saylı Goranboy-Naftalan seçki dairəsinin vahid namizədi Elçin Rzayevin müsahibəsinə diqqət edək: “...İndi dairənin seçicilərini ən çox bir məsələ maraqlandırır. Onlar G.Hacıyevanın hansı üzlə yenidən namizədliyini bu dairədən irəli sürməsini başa düşə bilmirlər. Özünü “avropalı xanım” sayan G.Hacıyeva, görəsən, Avropanın demokratik dəyərlərinə niyə sayğı göstərmir? Onun hələ bu əraziyə gəlib əhalinin hansısa problemi ilə məşğul olduğunu, insanların gün-güzəranı ilə maraqlandığını görən olmayıb. Rayonda onun nüfuzu olduqca aşağıdır. Haqqında uzun-uzadı söz-söhbətlər dolaşır...”

Bax, budur reallıq. Dünənə qədər YAP-çı olan bir medalın iki üzü olan G.Hacıbəyli deputat seçilmədiyi halda, dönüb oldu müxalifətçi və AXCP sədri Ə.Kərimliyə “sadiqliyini” nümayiş etdirərək, başladı sosial şəbəkələrdə söyüş söyməyə. Beləliklə də, antimilli ünsürlərin toplandığı “Milli Şura”da lövbər saldı. Necə deyərlər, qazan dığırlanıb qapağını tapdığı kimi, G.Hacıbəyli də layiq olduğu satqınlar yuvası olan “Milli Şura”da yer saldı.

### Natiq Cəfərli: “AXCP sədri Əli Kərimlinin tapşırıq və sifarişlərini icra edən Gültəkin Hacıbəyli kimilər cəmiyyətimizdə ikrahla qarşılanır”

Bu günlərdə “ReAL” partiyasının icra katibi N.Cəfərlinin G.Hacıbəylinin parlament seçkilərinə qatılmaq iddiasında olması ilə bağlı fikirlərinə münasibət bildirərək deyib ki, G.Hacıbəyli heç vaxt deputat olmayacaq və buna görə də, qəzəblidir. Çünki G.Hacıbəylinin sözləri əməlləri ilə bir deyil. G.Hacıbəyli “terrorçuları və casusları cəmiyyətə siyasi məhbus kimi sırıyanlar” deyəndə, AXCP sədri Ə.Kərimlini və Müsavat başqanını nəzərdə tuturdu. Bu gün isə başqa şey deyir. Bax, budur G.Hacıbəylinin iç üzü”.

Doğrudan da, adamın yazığı gəlir buna. İnsanın Ə.Kərimlinin, İ.Qəmbərin, A.Hacılının, F.Qəhrəmanlının, İ.Məmmədovun timsalında rəzil günə düşməsi, elə də təsirli deyil. Ancaq qadının bu kökə düşməsi dəhşətdir.

Göründüyü kimi, təpədən-dırnağa qədər bataqlığa batmış “Milli Şura”nın dolanbaclarında veyillənən, riyakarlığı, satqınlığı və xəbisliyi ilə tanınan, hər addımda AXCP sədri Ə.Kərimlinin tapşırıq və sifarişlərini icra edən G.Hacıbəyli kimilərin parlament seçkilərinə qatılması özü cinayətdir və elə buna görə də, fəaliyyətini cəmiyyətimiz ikrahla qarşılayır və birmənalı olaraq, rədd edir. Bax, budur dəhşət. Ancaq NANKOLARIN aqibəti elə belə də olmalıdır.

***Rəfiqə HÜSEYNOVA***

---



## Qələmi qırılmış “zurnalist”

**RƏFİQƏ**

Son vaxtlar yağışdan sonra göbələk kimi çıxan “jurnalistlərin” peyda olmasını görüb, öz-özümə fikirləşirəm ki, bu, nə olan şeydir, məgər jurnalist olmaq bu qədər asandır? Biz jurnalist olmamışıq? Bu yolu müəllimlərimiz Mir Cəlal, Bəxtiyar Vahabzadə, Nəsir İmanquliyev, Şirməmməd Hüseynov, Nəriman Zeynalov, Nurəddin Babayev, Cahangir Məmmədli, Mahmud Mahmudov və Yalçın Əlizadə kimi dəyərli qələm sahiblərindən öyrənə-öyrənə vicdanlı jurnalist yolu keçmişik. Ancaq bu gün Xədicə kimi əxlaqsız, mənəviyyatsız satqınların, əlinə “qələm” götürüb, özünü “araşdırıcı jurnalist” sayır. Xədicə kimi erməni xislətlidən nə gözləmək olar? Bu əxlaqsız hələ də anlamır ki, yaxşı jurnalist olmaq təkcə yazmaq qabiliyyəti tələb etmir. Əgər belə olsa idi, Lev Tolstoy, Ernest Hemenquey, Cek London... kimilər dünyanın ən yaxşı jurnalistləri olardılar. Bu dahilər belə demək mümkünsə, söz sehrbazları, hər bir oxucunun qəlbinə yol tapmağı bacaran yazıçılar idi. Onların işi yazmaq idi. Öz fikirlərini, ictimaiyyətdə oyatmaq istədikləri arzu və istəkləri, təbliğat məqsədli fikirlərini kağız üzərinə köçürürdülər. Amma əsas məqam odur ki, jurnalist düzgün nəticə çıxarmaq üçün baş verənlərə obyektiv, vicdanlı, qərəzsiz yanaşmalı, operativ olmalıdır. Təəssüf... Özünü “əsl”, özü də “araşdırıcı jurnalist” adlandıran Xədicə İsmayıl kimiləri görəndə, od tutub yanırsan. Məgər Xədicə kimi qrant dəllalları vicdan, düzgünlük və müqəddəsliyin nə demək olduğunu bilirmi?

### Dahi yazıçımız Cəlil Məmmədquluzadə demişdir: “Qələmin müqəddəs borcu xalqa xidmət etməkdir.”

Xədicə kimi başdan-ayağa çirkaba bulaşmış nə jurnalist kimi jurnalist, nə də azərbaycanlı kimi azərbaycanlı olan, ermənilərin maraqlarına xidmət edən satqın donqarı çıxmış “zurnalist”dir ki, bu donqarın içində yalnız və yalnız xəyanətlər var.

Budur X.İsmayılın jurnalistika adını ləkələməsi. Qrantları bahalı “CİP”lərə çevirən X.İsmayıl kimilərin özünü “jurnalist” adlandırması, bir jurnalist kimi məni göynədir. Çünki “qrant” Xədicə xaricdən pul alıb, hakimiyyətə qarşı çirkin kampaniyaların təbliğatçısı özünü “vicdanlı insan” saysa da, bu, dəvəquşunun başını kolda gizlətməsinə bənzəyir.

---

# Yadigar Sadıqlıdan Arif Hacılıya: “Müsavatı günü-gündən biabır edirsiniz!”

***Müsavat partiyasının seçkilərə qatılmaq qərarının ardınca, partiya daxilində qarşıdurmalar səngimir. Bu dəfə namizədlər ətrafında səs-küy yaranıb və bu səs-küyün parlament seçkilərinə qədər artacağı da istisna olunmur. Müsavat başqanının sabiq müşaviri Yadigar Sadıqlı “Facebook” profilində paylaşım edib və başqan Arif Hacılını bir sıra ittihamlara məruz qoyub. Belə ki, Müsavat partiyasının 88 saylı seçki dairəsindən deputatlığa namizəd irəli sürdüyü Aqil Mahmudov ətrafında gedən müzakirələri izlədiyini yazan Y.Sadıqlı, ona qarşı ittihamlara cavab olacaq, alababat bir arqument görmədiyini də qeyd edib. Onun fikrincə, həmin şəxs 2005-ci ildə həbs olunan Ruslan Bəşirliyə qarşı yalan ifadələr veribmiş: “Ən maraqlısı da odur ki, R.Bəşirlinin vəkili Müsavat partiyasının indiki başqan müavini və divan üzvü Osman Kazımov olub.***



Yəni “bilməmişik”, “xəbərimiz olmayıb” kimi arqumentlərə yer qalmır. Üstəlik, O.Kazımov da, indi Ruslan Bəşirliyə yazır ki, 2005-də olan şey 2019-da niyə yadına düşüb. Görəsən, bu hadisənin A.Mahmudov Müsavatdan namizəd olanda deyil, nə zaman xatırlanılacaqdı?”

### “Hansı səbəb, hansı motiv sizi məcbur edir belə adamı partiyaya qəbul edib, hələ namizədliyini də irəli sürəsiniz?”

Yadigar Sadıqlı statusunda partiya rəhbərliyinə suallar da ünvanlayıb: “Niyə axı, niyə? Hansı səbəb, hansı motiv sizi məcbur edir belə adamı partiyaya qəbul edib, hələ namizədliyini də irəli sürəsiniz? Ziyanı göz önündə olan bu addımın uduşu nədir?” Keçmiş başqan müşaviri bu dəfə də suallarının cavabsız qalacağına əmin olduğunu bildirib və əlavə edib ki, Arif Hacılı, uzağı, onu deputat olmaq üçün bu cür fikirlər səsləndirməkdə ittiham edəcək: “Bilirəm, heç nəyə cavab verməyəcəksiniz. Əksinə, A.Hacılı daxildə təbliğat aparacaq ki, Yadigar deputat olmaq üçün Müsavata (rəhbərliyə yox, Müsavata!) hücum edir. Ölümdə fəaliyyət var axı... Bəlkə İ.Qəmbər “mübarizə hakimiyyətlə Müsavat arasında gedir” kimi növbəti aforizm də deyəcək. Amma bununla vəziyyət dəyişmir ey, Müsavatı günü-gündən biabır edirsiniz”.

Göründüyü kimi, müsavatdaxili çaxnaşmalar, hətta seçkilər ərəfəsində də davam edir və bu reallıq, eyni zamanda, daha bir faktı təsdiq edir ki, bu xəmir hələ çox su aparacaq, hətta seçkilərə qədər, xüsusilə də seçkilərdən sonra adıçəkilən siyasi təşkilatdan qopmaları, qarşıdurmaların və ziddiyyətli mövqelərin sayı artmaqda davam edəcək.

***Rövşən RƏSULOV***

# İnsan haqlarının müdafiəsinin Azərbaycan modeli

***XVII əsrin sonları, XVIII əsrin əvvəllərindən etibarən geniş auditoriyalarda yayılan fəlsəfi nəzəriyyələrdə insana ən ali varlıq kimi yüksək qiymət verilməyə başlanmış, onun hüquq və vəzifələrinin insana layiq şəkildə formalaşdırılmasına təşəbbüs göstərilmişdir. Vaxtilə bəşəriyyətin ən böyük tarixi hadisəsinə çevrilən 1789-cu il böyük Fransa inqilabının məntiqi sonluğu olan "İnsan və Vətəndaş Hüquqları Bəyannaməsi" insan hüquqları sahəsində ilk yazılı deklarasiya kimi, iki əsrdən çoxdur ki, insan hüquq və azadlıqlarına dair konvensiya, Konstitusiya və qanun layihələrinin fundamental bazası kimi istinad mənbəyi rolunu oynayır.***

İnsan hüquqları anlayışının fəlsəfi əsaslarının işlənib- hazırlanması son üç əsrin payına düşür. XVIII əsrdən etibarən, Avropada insan hüquqları nəzəriyyələri təşəkkül tapmağa başlamış, insan və vətəndaş hüquqları meydana çıxmışdır. Siyasi hüquqlar - ümumi seçkilər, gizli səsvermə, respublika quruluşu, xalq özünüidarəsi, cəmiyyət və birliklərin sərbəstliyi, siyasi həyatda və hakimiyyət sistemində iştirak etmək və s. XIX əsrdə əldə edilmişdir. XX əsr isə, bütün bu hüquqlar sırasına sosial hüquqları əlavə etmiş, insan hüquqları ideyası və həmin ideyanın həyata keçirilməsi təcrübəsi ötən əsrdə bütün dünyaya yayılmışdır.

Bəşəriyyətin təkamül prosesi, əslində, insan hüquq və azadlıqlarının düşüncələrdən, xəyaldan gerçəkliyə çevrilmə prosesində müşahidə olunan mübarizələr tarixidir. Özünüdərkdən özünütəsdiqə uzanan keşməkeşli yollarla irəliləyərək, dünyada onun maddi və mənəvi varlığını məhdudlaşdırmağa yönəlmiş maneələri, sədləri dəf etməyə çalışan insan daim haqq-ədalət axtarışında olmuş, ədalətli cəmiyyət, ilk növbədə, daxili azadlığını təmin edəcək demokratik dövlətə qovuşmaq üçün mücadilə aparmışdır.

Müasir dövrdə insan hüquq və azadlıqları sahəsində qazanılan nailiyyətlər dövlətlərin ümumi inkişaf səviyyəsini, iqtisadi-siyasi potensialını müəyyənləşdirən başlıca amillərdən biridir. İndi bütün sivil cəmiyyətlərdə insan haqlarının təminatı və ümumbəşəri humanist dəyərlərin bərqərar olmasına, eləcə də, bu sahə üzrə ixtisaslaşma demokratik institutların fəaliyyətinə xüsusi qayğı ilə yanaşılır. İnsan hüquq və azadlıqlarının təminatı bəşəriyyətin demokratik inkişafının ayrılmaz hissəsinə, mənəvi-hüquqi, siyasi ideallarının ali təzahürünə çevrilməklə, vətəndaş cəmiyyətinin yetkinliyinin başlıca meyarı kimi çıxış edir. Bu dəyərlər özündə ciddi təbliğat-siyasi məzmun ehtiva etməklə, dövlətlərin beynəlxalq nüfuzunun formalaşmasına da mühüm təsir göstərir.

İnsan hüquqları şəxsiyyət varlığını ifadə edən, müəyyən normativ strukturlu xassə və xüsusiyyət olaraq, onun həyatını, o cümlədən, cəmiyyət, dövlət və digər fərdlərlə qarşılıqlı münasibətinin ayrılmaz və zəruri vasitəsidir.

İnsan hüquqları anlayışı bu gün dünyada ictimai inkişaf prosesini istiqamətləndirən ən mühüm anlayışlardan biridir. İnsan hüquqları ciddi elmi araşdırmaların predmetinə, daxili siyasətlə bağlı qızğın müzakirə və mübahisələrin mövzusuna çevrilmiş, dünyanın əksər ölkələrində insanın mövcudluğunun və milli inkişafın vacib şərti kimi qəbul olunmuş, hüquqi dövlət quruculuğunun başlıca meyarlarından biri kimi tanınmış, demokratikləşmə proseslərinin geniş vüsət aldığı müasir dövrümüzdə praktiki dəyişikliklərin mərkəzinə keçmişdir. İnsan, onun ləyaqət və qabiliyyətinin daim inkişaf etdirilməsi üçün yaradılmış şərait, demokratikləşmənin başlıca istiqamətlərini təşkil etməkdədir.

İnsan hüquqları anlayışının bugünkü mənzərəsi İkinci Dünya müharibəsi zamanı və müharibədən sonrakı ilk illərdə formalaşmışdır. Müharibə gedən dövrdə antihitler koalisiyasına daxil olan ölkələrin başçıları bəyan etmişlər ki, insan hüquqlarının qorunması və bu hüquqlara təminat verilməsi onların müharibədə qarşıya qoyduqları başlıca məqsəddir. 1945-ci il Nürnberq Məhkəməsində də müttəfiqlər nasist liderlərinin cinayətlərini əks etdirən siyahıya "insaniyyətə qarşı cinayəti" də daxil etmişlər. 1948-ci ildə insan hüquqları ideyası BMT-nin Ümumdünya İnsan Hüquqları Bəyannaməsində və həmin bəyannamədən irəli gələn çoxsaylı beynəlxalq sazişlərdə öz əksini tapmış, o vaxtdan etibarən "insan hüquqları" anlayışı bütün dünyaya yayılmış, bu, azad və ləyaqətli yaşayış uğrunda mübarizə aparan insan üçün əsas ilhamverici ideyaya çevrilmişdir...

...duğu yolla Prezident İlham Əliyevin rəhbərliyi altında inamla irəliləyir və ardıcıl uğurlar qazanır.

Ulu Öndər Heydər Əliyevin bu sahədə ən böyük əməyi, məhz müstəqil Azərbaycanın ilk Konstitusiyasının hazırlanması və qəbuludur. 1995-ci il noyabrın 12-də xalq Ümummilli Liderin bu təşəbbüsünü dəstəklədi. Müstəqil dövlətimizin ilk Konstitusiyasının preampulasında Ulu Öndər göstərir ki, "Azərbaycan xalqı özünün çoxəsrlik dövlətçilik ənənələrini davam etdirərək, bütün cəmiyyətin və hər kəsin firavanlığının təmin edilməsini arzulayaraq, ədalətin, azadlığın və təhlükəsizliyin bərqərar edilməsini istəyərək, keçmiş, indiki və gələcək nəsillər qarşısında öz məsuliyyətini anlayaraq, suveren hüquqlardan istifadə edərək, Azərbaycan dövlətinin müstəqilliyini və ərazi bütövlüyünü qoruyaraq, xalqın iradəsinin ifadəsi kimi qanunların aliliyini təmin edən hüquqi-dünyəvi dövlət quruculuğunu bəyan edir. Başqa sözlə, öz tarixi müstəqilliyini bərpa etmiş Azərbaycan Respublikası hüquqi-demokratik və dünyəvi dövlət quruculuğunu inkişaf yolu seçib. Konstitusiyanın 7-ci maddəsinin III hissəsinə əsasən, dövlət hakimiyyətinin qanunvericilik, icra və məhkəmə hakimiyyətinə bölünməsi prinsipi təsbit edilib.




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

Bu ali məqsədin müəyyənləşdirilməsi, onun həyata keçirilmə mexanizmlərinin tapılması və reallaşdırılması, sözügedən sahədə hüquqi bazanın yaradılması isə, müstəqil dövlətimizin qurucusu, Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlıdır. Ulu Öndər Heydər Əliyev Azərbaycanda hakimiyyətə gəldikdən sonra ölkədə hüquqi dövlət quruculuğu sahəsində ardıcıl, sistemli və gələcəyə hesablanan islahatlara start verildi. Azərbaycanın bu gün dünyada müstəqil, hüquqi və demokratik dövlət kimi tanınması, ölkə vətəndaşlarının hüquqlarının, azadlıqlarının təmin edilməsi, müdafiə olunması, məhz Ümummilli Liderin adı ilə bağlıdır. Ulu Öndər Heydər Əliyevin Azərbaycanın müstəqil dövlət kimi möhkəmlənməsi və demokratik inkişaf yolu ilə inamla irəliləməsi üçün gördüyü işlər barədə çox fikirlər səsləndirilsə də, gənc nəslin Onun fəaliyyətinə dair mütəmadi biliklər əldə etməsi, bugünkü zamanımızın tələbidir. Çünki Azərbaycan, məhz müstəqil dövlətimizin qurucusunun qoy...

Beləliklə, keçmiş Sovet konstitusiyalarından fərqli olaraq, ilk dəfə konstitusiyamızda dövlət hakimiyyətinin bölgüsü prinsipi həyata keçirilib. Ümumiyyətlə, konstitusiyanın III fəsli (24-71-ci maddələr), bütövlükdə, yəni 158 maddədən 48-i insan və vətəndaş hüquqlarına və azadlıqlarına həsr edilib. Konstitusiyanın 71-ci maddəsində insan və vətəndaş hüquqlarına və azadlıqlarına təminat verilir. Konstitusiyada təsbit edilmiş insan və vətəndaş hüquqlarını və azadlıqlarını gözləmək və qorumaq qanunvericilik, icra və məhkəmə hakimiyyəti orqanlarının borcu hesab edilir. Həmin maddədə, daha sonra göstərilir ki, insan və vətəndaş hüquqlarının və azadlıqlarının həyata keçirilməsini heç kəs məhdudlaşdıra, konstitusiyanın heç bir müddəası, insan və vətəndaş hüquqlarının və azadlıqlarının ləğvinə yönəldilmiş müddəa kimi təfsir edilə bilməz. Azərbaycan Respublikasının ərazisində insan və vətəndaş hüquqları və azadlıqları birbaşa qüvvədədir.

İnsan hüquqlarının və azadlıqlarının müdafiəsi haqqında Konvensiyaya dair 3 may 2002-ci ildə Vilnüs şəhərində qəbul edilmiş 13 saylı protokolun 1-ci maddəsində göstərilir ki, ölüm cəzası ləğv olunur, heç kəs belə cəzaya məhkum edilə və ya edam oluna bilməz. Lakin hələ bundan 4 il əvvəl 1998-ci ildə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin təşəbbüsü ilə Şərqdə, ilk dəfə olaraq, ölüm cəzası ləğv edilib. Bu, Ümummilli Lider Heydər Əliyevin humanist ideyalara sadiqliyini bir daha təsdiq edir. Ölkəmizdə insan və vətəndaş hüquq və azadlıqlarının müdafiəsi işində Ümummilli Lider Heydər Əliyevin 1998-ci il fevral ayının 22-də imzaladığı "İnsan və vətəndaş hüquqları və azadlıqlarının təmin edilməsi sahəsində tədbirlər haqqında" Fərmanı və 18 iyun 1998-ci il tarixli Sərəncamı ilə təsdiq edilmiş "İnsan hüquqlarının müdafiəsinə dair" Dövlət Proqramı mühüm rol oynayır.

Ulu Öndər Heydər Əliyev insan və vətəndaş hüquq və azadlıqlarının təminatının müdafiəsində məhkəmə hakimiyyətinin rolunu artırmaq üçün ciddi islahatlar aparıb. Ölkədə hakim kopusunun formalaşmasında tamam yeni üsül və metodlardan istifadə edilib. Hakim vəzifəsinə ədalətli və şəffaf seçim məhkəmə-hüquq islahatlarının keyfiyyətlə aparılmasına təkan verib. Onun rəhbərliyi altında Azərbaycan dünyada insan hüquq və azadlıqlarının təməl prinsipi kimi qəbul edilən ən mühüm beynəlxalq Konvensiyalara da imza atıb.

Azərbaycan 2001-ci ildən İnsan Haqları üzrə Konvensiyaya qoşulub. Konvensiyanın 46-cı maddəsinin, müvafiq olaraq, Avropa Məhkəməsinin Azərbaycana münasibətdə qəbul edəcəyi qərarlar qəti olmaqla, bütün dövlət orqanları, o cümlədən, məhkəmələr üçün məcburidir. Həmin maddənin tələbinin pozulmaması üçün dövlətdə müvafiq mexanizm olmalı, milli məhkəmələr tərəfindən Avropa Məhkəməsinin prezident hüququna müraciət edilməlidir.

***VAHİD ÖMƏROV,***
***fəlsəfə üzrə fəlsəfə doktoru***

# BSU-da silsilə seminarlar keçirilib





Bakı Slavyan Universitetində ERASMUS+(PETRA) layihəsi çərçivəsində yaradılmış Təlim və Tədris Mərkəzində silsilə seminarlar keçirilib. Seminarlar çərçivəsində Rus dili və onun tədrisi metodikası kafedrasının dosent əvəzi Raziyyə Balayeva tərəfindən “Rossiyskie narodı tyurkskoqo proisxojdeniya” (Rusiyanın türk mənşəli xalqları) mövzusunda seminar keçirilib. Seminarda Rusiya ərazisində yaşayan türk xalqlarının tarixi, mədəniyyəti, müasir dövrümüzdəki vəziyyətləri haqqında məlumat verilib və dinləyiciləri maraqlandıran suallar cavablandırılıb.

“Dinləmə dərslərinin təşkil edilməsi və bu zaman vacib olan bacarıqların formalaşması” mövzusunda növbəti seminar Xarici dillər kafedrasının müəllimi Simnarə Cəbrayılova tərəfindən aparılıb. Seminar çərçivəsində dinləmə dərslərinin təşkili qaydaları müzakirə olunub. Müəllim S. Cəbrayılova bildirib ki, bu dərslərin təşkili üçün xüsusi metodlardan istifadə edildiyi zaman dərsin məhsuldarlığı daha da artır. Dinləyicilər “3 addımda dinləmə” metodu ilə tanış olublar. Sonda verilən tapşırıqlar praktik şəkildə yerinə yetirilib.

Daha bir maraqlı disput-mühazirə isə Rus ədəbiyyatı tarixi kafedrasının dosenti Kəmalə Umudova tərəfindən aparılıb. “Dostoyevski yaradıcılığında obrazın quruluşu “Yoxsul insanlar” romanı” mövzusunda mühazirəyə universitetin müəllim və tələbələri qatılıb. K.Umudova Dostoyevskinin yaradıcılığına, onun ilk bədii əsəri olan “Yoxsul insanlar”a qarşı həm tənqidçi, həm də oxucu tərəfindən birtərəfli yanaşmağın düzgün olmadığını qeyd edib.

Dosent K.Umudova Dostoyevskinin ədəbiyyat haqqında düşüncələrinə, onun gənc yaşlarından başlayaraq, dərin antropoloji axtarışlarda olduğuna diqqət yetirib, yazıçının realist üslubunun özünəməxsusluğunu təmin edən mənəvi dəyərlər sistemini Makar Devuşkin obrazı ətrafında geniş təhlil edib. Dostoyevskinin əsərində, ənənəvi süjet anlayışından fərqli olaraq, hadisələrin insanlar arasında münasibətlər, kommunikativ əlaqələr üzərində qurulmasından, “Yoxsul insanlar” romanının bədii mənzərəsində “yazı”, “kitab”, “yazıçı” konseptlərinin rolunu önə çıxaran mühazirə dinləyicilər tərəfindən maraqla qarşılanıb.

Mühazirə müzakirələrlə davam edib.

***ZÜMRÜD***

## ELAN

**Azərbaycan Dövlət Pedaqoji Universitetinin Təsviri incəsənət müəllimliyi ixtisası üzrə I kurs tələbəsi Sərdərova Fərqanə Etibar qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.**

**X X X**

**Azərbaycan Dövlət Pedaqoji Universitetinin Riyaziyyat müəllimliyi ixtisası üzrə IV kurs tələbəsi Əhmədova Şəbnəm Əfqan qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.**

**X X X**

**Azərbaycan Dövlət Pedaqoji Universitetinin Fizika müəllimliyi ixtisası üzrə I kurs tələbəsi Kərimova Elnarə Allahverdi qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.**


# səs

Son səhifə 21 dekabr


# “Qarabağ naminə danış” adlı videoçarxın təqdimatı keçirildi




***Dünən Yeni Azərbaycan Partiyası Nəsimi rayon təşkilatında “Qarabağ naminə danış” adlı videoçarxın təqdimatı və ilin yekunlarına həsr olunmuş tədbir keçirildi. İlk olaraq, rayon təşkilatı tərəfindən hazırlanmış “Qarabağ naminə danış” adlı videoçarx iştirakçılara təqdim edilib.***

Tədbirdə çıxış edən YAP Nəsimi rayon təşkilatının sədri Məlahət İbrahimqızı ölkəmizin inkişafının Ulu Öndər Heydər Əliyevin müəyyənləşdirdiyi siyasi kursun Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi ilə bağlı olduğunu bildirdi. Azərbaycanın dinamik inkişafını qeyd edən rayon təşkilatının sədri ölkəmizdəki əsaslı dəyişikliklərin və inkişafın bütün bölgələrimizi əhatə etdiyini diqqət çəkən M.İbrahimqızı, son 16 ildə Azərbaycanın qürur doğuran səhifələrini təşkil etdiyini qeyd etdi.

M.İbrahimqızı ölkəmizdə dövlət başçısının rəhbərliyi ilə islahatların aparıldığını diqqətə çəkərək, 2003-cü ildə Azərbaycanı qüdrətli dövlətə çevirəcəyini bəyan edən Prezident İlham Əliyevin apardığı siyasət nəticəsində, respublikamız siyasi-iqtisadi və mədəni mərkəz, qlobal enerji və nəqliyyat layihələrinin təşəbbüskarı və fəal iştirakçısı, mötəbər beynəlxalq tədbirlərə uğurla ev sahibliyi edən ölkə kimi tanınıb.

Rayon təşkilatının sədri M.İbrahimqızı Cənab Prezidentin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınmasına xüsusi diqqət yetirdiyini və bütün xarici səfərlərdə, eləcə də, paytaxtımızda keçirilən çoxsaylı görüşlərdə Ermənistanın hərbi təcavüzü məsələsini daim önə çəkdiyini bildirdi. O, cari il oktyabrın 3-də Soçi şəhərində “Valday” Beynəlxalq Diskussiya Klubunun keçirdiyi ənənəvi tədbirdə Prezident İlham Əliyev növbəti tarixi çıxışını diqqətə çəkərək, ölkə rəhbərinin hər bir çıxışının bugünkü gənclərin formalaşmasında çox böyük önəmi olduğunu bildirdi.

Rayon təşkilatı tərəfindən rayon ərazisində yerləşən ali məktəblərdə təhsil alan gənclər arasında “Qa-



rabağ Azərbaycandır!” mövzusunda inşa-yazı müsabiqəsinin keçirildiyini diqqətə çəkərək, müsabiqədə 3000-dən çox gəncin iştirak etdiyini bildirdi.

Tədbirdə qalib olan gənclərə diplomlar təqdim olundu. Birinci yerin qalibləri isə rayon təşkilatı tərəfindən təqaüd təyin edilib. Daha sonra YAP-ın həyata keçirdiyi layihələrdə iştirakına görə bir neçə şəxsə təşəkkürnamələr təqdim olundu.

Tədbirdə çıxış edən rayon Ağsaqqallar Şurasının sədri Aydın Heydərov hər bir Azərbaycan gəncinin dövlətimizin qorunmasında, onun inkişafında, ərazi bütövlüyünün bərpasında borcu və məsuliyyəti olduğunu bildirdi.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Çəkiliş zamanı həlak olan kaskadyorun ailəsi 8,6 milyon dollar alacaq

ABŞ-ın Atlanta (Corciya ştatı) şəhər məhkəməsi 2017-ci ildə “Gəzən ölülər” çoxseriyalı bədii filminin çəkilişləri zamanı həlak olan kaskadyorun ailəsinə 8,6 milyon dollar təzminat ödənməsi barədə qərar qəbul edib. Bu barədə “Los Angeles Times” qəzeti yazır. Qəzetin yazdığına görə, filmin çəkilişləri zamanı 33 yaşlı Con Berneker yeddi metr hündürlükdən xüsusi vasitələrlə qorunmayan yerə yıxılaraq həlak olmuşdu. Həmçinin çə-



kilişlərdə təcili tibbi yardım maşını olmadığı üçün kaskadyor xəstəxanaya 30 dəqiqə sonra helikopterlə çatdırılmışdı.

Serialın çəkilişləri ilə məşğul olan “AMC Network” telekompaniyasının nümayəndəsi hadisəni faciəvi təsadüf adlandırıb və adətən çəkilişlərin təhlükəsizlik tələblərinə uyğun təşkil olunduğunu bildirib. Lakin vəkil məhkəməni kaskadyorun fəndi icra etdiyi zaman kompaniyanın lazımi təhlükəsizlik səviyyəsini təmin etmədiyinə inandırmağa müvəffəq olub. Təcrübəli kaskadyor Con Berneker “Rədd ol” və “Loqan” filmlərinin çəkilişlərində də iştirak etmişdi.


*Baş redaktor:*
**Bəhruz Quliyev**
*Baş redaktorun müavinləri:*
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet “Səs”in komputer mərkəzində yığılır, səhifələnir.**
**“Azərbaycan” nəşriyyatında çap olunur**
***Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.***

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 4600**